Pərvanə MEHMANQIZI

*Qəhrəmanlar unudulmur*

# MUROV QARTALI

BAKI - 2022

**Redaktor:** Oqtay ƏRGÜNƏŞ
yazıçı-publisist

**Murov qartalı.** Pərvanə Mehmanqızı. "Ərgünəş" FM NPM, Bakı, 2022-ci il. Səh. 98

*Müharibənin nə qədər bədbəxtlik gətirdiyini çoxumuz görmüşük, amma qanlı-qadalı qovğalar, həm də özünün mənəvi və fiziki ağrıları ilə ortalığa çıxıb, insnların bütün daxili aləminin tam şəkildə açılmasına səbəb oldu. Qarşımızda həyat və ölüm, vəhşilik və ucalıq, alicənablıq və mərdlik, sədaqət və xəyanət kimi seçimlər yaratmaqla yanaşı, qəhrəman, igid oğulları bizə tanıtdı. İndi dünya Azərbaycanı qəhrəman xalq kimi tanıyır.*

*Əziz xalqımız, bu kitabı oxuyun, nəsillərimizə layqli nümunə olan qəhrəman oğlullarımızın timsalında vətənpərvər övladlar böyüdün.*

İSBN:978-9952-8239-5-0

*Redaktordan*

# Qartal xislətli qəhrəman

Qartallar zirvəyə qonar, öz məkanını canı-qanı bahasına qoruyar. Zirvələr isə yalnız güclülərə və cəsurlara xas olur. Başı ağ çalmalı zirvələrsə yalnız çətinliklərə sinə gərən, mərdlik, cəsarət, dözüm göstərən igid oğullara məxsusdur. Ağlının gücü ilə döyüşlərə qatılmış əsgərlərimiz lazım gələndə sıldırıımlı qayalara dırmanaraq dırnaqları qançır olsa da, çox məhrumiyyətlərə dözə-dözə qələbəyə doğru, Vətən torpaqlarının azadlığı uğrunda, hətta şirin canından belə keçməyə hazır olan qəhrəman oğullarımızdır. Şəhidlərimizin, igid qazilərimizin qanı ilə yoğrulmuş Vətən torpaqları bundan sonra daha çox igidlər yetirəcəkdir.

Polkovnik-leytenant Atəm Əliyev bu kitabın yaranmasının yaxşı mənada səbəbkarıdır. Mən deyərdim ki, yeni tarix yazan Atəm kimi qəhrəman oğullarımız Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə yeni-yeni səhifələr yazaraq, öz adlarını həmin salnamənin ön səhifələrinə hopdurmuşlar. Atəm Əliyev ata-baba ənənələrini yaşadaraq hərbçi olmağı qarşısına məqsəd qoymuşdu. Cəmşid Naxçıvanski adına Hərbi Li-

seyə daxil olur, Azərbaycan Hərbi Akademiyasında təhsil alır, hərbin sirlərini, xalqımızın qəhrəmanlıq tarixini dərindən öyrənərək tanınmış zabitlərdən biri kimi şöhrət tapmışdır. Hərbi xidmətini Naxçıvan torpağında başa vuran Atəm Əliyev Qarabağın azadlığı uğrunda mübarizəyə köklənmiş ön cəbhələrdə xidmət etmək üçün müraciət edir. Bir sıra rütbələrdə müxtəlif bölmə, bölük və dəstələrə komandanlıq edir. Onun zabit düşüncəsi, düşmənin döyüş mövqelərini məhv etmək üçün irəli sürdüyü təkliflər komandanlıq tərəfindən həmişə rəğbətlə qarşılanmışdır.

Bir sıra hərbi hissələrdə xidmət etsə də, onun həyatının ən unudulmaz anları Murovdağ yüksəklikləri uğrunda döyüşlərdə yaranmışdır. Düşmən hər vəchlə strateji əhəmiyyəti olan Murovdağ yüksəkliklərini ciddi cəhdlə müdafiə edirdi. Buna baxmayaraq bölük komandiri polkovnik- leytenant Atəm Əliyev həmişə səngər dostlarının ön cərgəsində hücuma keçirdi. Əsgərlər komandirin cəsurluğundan ruhlanaraq düşmənə aman vermirdilər. Atəm Əliyevin Azərbaycan xalqının dədə-baba torpaqlarına göz dikən, onun sərvətlərini talamaq, türk övladlarını daha çox məhv etmək, onlara olmazın əzab-işgəncə vermək, nəhayət müqəddəs Vətən torpaqlarının işğalına çalışmaq tarixin qan yaddaşına yazdığı xatirələrdə düşmənlərimizin xislətini bizə aydın xatırladırdı.

Müharibənin nə qədər bədbəxtlik gətirdiyini çoxumuz görmüşük, amma qanlı-qadalı qovğalar, həm də özünün mənəvi və fiziki ağrıları ilə ortalığa çıxıb, insnların bütün daxili aləminin tam şəkildə açılmasına

səbəb oldu. Qarşımızda həyat və ölüm, vəhşilik və ucalıq, alicənablıq və mərdlik, sədaqət və xəyanət kimi seçimlər yaratmaqla yanaşı, qəhrəman, igid oğulları bizə tanıtdı. İndi dünya Azərbaycanı qəhrəman xalq kimi tanıyır.

Dəfələrlə yaralansa da, Atəm hətta komandanlığa mövcud durum barədə məlumat verəndə belə, özünün yaralandığını bildirmədi. Döyüşçülərə təlimlər zamanı Xocalının, Əsgəranın, Ağdabanın, Ağdərənin, Laçının, Şuşanın və düşmənin qan-qadasına rast gəlmiş digər kütləvi qırğınlar barədə məlumat verir, müqəddəs ocaqlarımızın, məzarlıqlarımızın, dini və mədəni abidələrimizin erməni vandallığından bəhs edir, xalqımızın günahsız övladlarının, ağbirçək və ağsaqqalların düşmən tərəfindən qətlinin intiqamını alacaqlarını qarşısına məqsəd qoymuşlar. Döyüşlərdə polkovnik-leytenant Atəm Əliyevin həmişə "Vətən uğrunda irəli!" səslədiyi əsgərlər qəhrəmanlıqla vuruşurdular.

Murov dağın zirvəsinə qələbə bayrağını sancan polkovnik-leytenant Atəm Əliyevə döyüşçü dostları "Murov qartalı" fəxri adı verməkdə qürur duyurdular. Atəm bölüyü ilə bərabər tez-tez düşmən səngərlərinə basqınlar təşkil edir, onların döyüş planlarını pozur, şəhid olan səngər dostlarının intiqamını alırdı. Ağır yaralanan Atəm Əliyev qəhrəmanlıqla həlak olsa da, onun döyüşçü dostları Vətən oğullarının qisasını lazımınca aldılar.

Vətənpərvərlik - Vətənini, xalqını sevənlərin hiss və durğularını özündə təcəssüm etdirən kriteriyadır.

Vətən torpağına sevgi əkən, ocağının qorunu gözü üstündə saxlayan hər kəs şərəflənər. Şəhid vətən oğulları torpağa gömüldülər ki, xalqımız azad yaşasınlar. Atəm Əliyev böyük xidmətlərinə görə çoxsaylı orden və medallara, təltiflərə layiq görülmüşdür.

Əziz oxucu, Qarabağın azadlığı uğrunda döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərmiş polkovnik-leytenant Atəm Əliyevin həyat və fəaliyyətinə ithaf olunmuş ”Murov qartalı” kitabı və buradakı xatirələr təkcə bir igid oğlumuza deyil, döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə və qazilərimizə yönəlmişdir. Oxuyun, nəsillərimizə layqli nümunə olan qəhrəman oğlullarımızın timsalında vətənpərvər övladlar böyüdün.

Polad sınar, əyilməz,
Qızarmasa, döyülməz.
Döyüşlərdə Türk oğlu
Şəhid olar, yenilməz!

***Oqtay Ərgünəş,***
***Yazıçı-publisist***

***Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər***

*İlham ƏLİYEV.*
*Azərbaycan Respublikasının Prezidenti*

# MUROV QARTALI

*Tarixlərdə, çox qədimdə adın var,*
*Neçə-neçə qəhrəman övladın var,*
*Fikrət Qoca şeir sənət ustası*
*Habil Kaman yetişdirən Ağdaşım...*
*Mənim əziz qonaqpərvər Ağdaşım..*

Vətən bizim yaşadığımız kənddən, şəhərdən, qəsəbədən, rayondan başlayır. Yamyaşıl çəmənliklərindən, meşələrindən, durna gözlü bulaqlardan, dağlarından, dərələrindən başlayır Vətən. Onun hər şeyi - çörəyi, duzu torpağı, çayı, suyu o qədər müqəddəs doğmadır ki...

Hər quşa öz yuvası şirin olduğu kimi, hər insana da öz Vətəni şirindir. Vətən-doğma diyarım, ana yurdumdur!..

Vətən-babalarımın, dədələrimin əmanətidir bizlərə. Vətən-tariximizdir, əmanətimizdir, azadlığımızdır, bizim ənənələrimizdir! Vətən hərşeyimizdir!..

İnsan öz el-obasını yaşadığı, boya-başa çatdığı, oxuyub təhsil aldığı məkanın keçmişini, bu gününü yaxşı bilməsə, qoruyub saxlamasa, gələcək nəsillərə ötürə bilmərsə, əsl vətəndaş ola bilmərik. Vətən ana qucağı kimi isti, ata nəfəsi kimi doğma və etibarlıdır. Biz vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz obamız kəndimiz bu torpaqlardadır. Baba və dədələrimiz bu torpaqlarda uyuyur və hər birimiz bu torpaqlarda addımlayırıq. Vətən hər birimizcün müqəddəsdir əzizdir doğmadır. Hələ kiçik yaşlarımdan valideynlərimin dilindən “Vətən anadır” kəlməsi eşidə-eşidə böyüdüm. Müqəddəs torpağımızın üstündə addımladıqca yavaş-yavaş dizlərimiz bərkidi, qollarımıza güc-qüvvət gəldi, bütün varlığımızla yurdumuza-torpağımıza Vətənimiz Azərbaycanımıza borcluyuq. Hər bir insan öz el-obasını sadiq olmalı, əlindən gələni etməlidir.

Bəli, mənim elim Azərbaycandır. Vətənini, torpağını yurdunu sevən bir vətəndaş üçün nə qədər vətənini şöhrətləndirən torpağını yüksəklərdə uca edən Ağdaşın ziyalılarıdır, qəhrəman oğullarıdır. Azərbaycanda açılan dünyəvi təhsil ocaqlarından biri 25 oktyabr 1882-ci ildə Ağdaşda dövrün ziyalısı, maarifçisi Süleyman Qayıbov tərəfindən əsası qoyulan “Rus-tatar” məktəbi olmuşdur. Bir çox sahələrdə yer alan Ağdaş öz əhalisinin zəhmətsevərliyi ilə xüsusi ilə ticarət-təsərrüfat işlərində hər zaman ön-

də olub. Ağdaş bir çoxları tərəfindən gələn ziyarətgah və övliyalar diyarıdır.

Torpağının ziyalıları sayılacaq qədər çoxdur. Elə bunlara misal olaraq Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Bəkir Nəbiyev, Xalqın sevimlisi xalq şairimiz Fikrət Qoca, Azərbaycan Respublikasının xalq artisti böyük kaman ustadı Habil Əliyev kimi sənətkarlar iz qoyan insanlardan olublar.

Elə məndə bir Ağdaşlı gənc yazar olaraq öz sevgimi, istəyimi, borcumu Vətən darda ikən işğalçı düşmənə qarşı mübarizədə canından-qanından keçən, Vətən yolunda şəhidlik zirvəsinə ucalan igid qəhrəmanlarımızı qələmə almağı özümə borc bil-




***Abad kəndinin girəcəyində Ağdaş şəhidləri lövhəsi***

dim. Elə yollandım mənə doğma olan Ağdaşın Abad kəndinə.

Çox zəhmətkeş əməksevər Əliyevlər ailəsinə. Məkana çatmağıma az qalmış yolun kənarındakı böyük bir şəkil tablo nəzərimizi çəkdi. Palkovnik-leytenant Atəm Əliyev və onunla birlikdə Ağdaşın 33 şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarını ehtiramla yad edərək, çox qururla baxdım hər birinə. Məramımız sadəcə onları gənc nəslə tanıtdırmaqdı. Bir hikmətli söz yadıma düşdü. “Eli dağlamaq olmaz, ağzın bağlamaq olmaz”. Kəndin fəxri qəhrəmanı hər kəsin ürəyində xoş xatirələri qalan şəhid polkovnik-leytenant Atəm Əliyev haqqında çox mətləblər öyrəndik. Hər kəs toplandı, onunla olan xatirələri bölüşmək istəyirdilər. Elə o böyük şəhidlərin şəkil tablosunu da kənd camaatı ucaldıb. Adəm doğulduğu kənddə, el-obası və doğmalarının ürəklərində bir qəhrəman insan olaraq iz qoymuşdur. Hər kəs qürürla deyirdi:

“O, bizim fəxrimiz, qurürümuzdur, o ölməyib, hər zaman kiçikdən böyüyə bizim qəlbimizdə yaşayacaqdır”.

Evin kəndarında ağ saçlı, nur üzlü gözləri dolan Ananı gördüm. İlk dəfə eşitdiyimiz, nəğmələrin laylaların ən böyük sədasıdır Analar. Min əziyyətlə şirin yuxularına haram qatan, balalarını mənəvi rahatlığa qovuşdurandır Analar!.

Atəm Əliyev kimi igid qəhrəmanlarımızı ölümün gözünə dik baxmağı öyrədən və Vətən yolunda şirin canından keçmiş igid oğulları böyüdəndi Analar!..

İllərdi sanki dili yox, gözləri danışır içindəki dərdiylə. O, Ana ki, qürurla başı dik yenə də dayanıb göz





*Atəmin uşaqlıq illəri*




***"Mənim oğlum qəhrəmandır" adlı keçirilən tədbirində Ulduzə xanım***



***Atəmin atası və qardaşları***



***Atəm atası və ansı ilə***

yaşlarını gözlərində dondurub sanki balası gələcək deyə gözləyirdi:

Ulduzə Ana ailədə bir necə övlad böyüdüb. İgid, qəhrəman oğlu Atəm Əliyev haqqında xatirələrini bölüşməsini istədik.

- Adəm 1982-cildə Ağdaşın Abad kəndində anadan olub. 5 oğul övladım olub, elə ilki Atəm idi. O, 1989-cu ildə Ağdaşın Abad kəndinin Faiq Zinharov adına orta məktəbin birinci sinfinə daxil olmuş, 1996-ci ildə isə həmin məktəbin 8-ci sinfini bitirmişdi.

Onun haqqında danışmaq mənə çətindi, ağırdı, həm də qürurludu. Mənim səhhətimdə problemlər olduğucün Atəm bütün işlərin arxasınca özü qaçırdı. Atası Əliyev Vaqif Mustafa oğlu məktəbdə idman müəllimi işləmişdi. Elə hər bir övladına idmanı, hərbini o sevdirmişdi. Atasının arzusu o idi ki, Atəm idmançı-hərbçi olsun. Amma onun vaxtsız ölümü və həyatın bütün çətinlikləri bir ana və bir qadın olaraq mənim çiyinlərimdə oldu hər zaman. Çalışdım, əzab-əziyyət çəkərək yoldaşımın arzusunu həyata keçirmək üçün təkbaşına balalarımı böyütdüm. Atəm mənim köməyim yoldaşımdan sonra dayağım idi. Çox əziyyətlə kənd yerində əkin-biçinlə, maldarlıqla, çalışıb balalarımı böyütdüm. Birini tapan zaman birini tapmaq bizə çox çətin oldu. Ama gözü tox, halallıqla böyütdüm hər birini. Çox şükür ki, ağıllı övladlar oldular, əziyyətimi itirmədilər.

Danışdıqca göz yaşlarını, dərdini içində boğan Ulduzə Ana özünü toparlayıb balası Atəmlə xatirələrini davam etdirdi.

- Atəm hec nədən qorxmaz və çəkinməzdi. Qardaşlarına hər zaman böyüklük, atalıq etmişdi. Bizlərə, qohum-əqrabaya, böyüyə-kiçiyə hörmət edən oğul olmuşdu. Onun canında, qanında vardı vətən məhəbbəti. Elə ata babası da Vətən yolunda döyüşüb, qəhrəmancasına həlak olmuşdular.

Babası Əliyev Mustafa Alməmməd oğlu 1941-1945 illərdə müharibədə iştirak etmişdilər. Anamın əmisi oğluda İxtiyar Məmmədov birinci Qarabağ Müharibəsinin iştirakçısı olmuşdur. 1989-1994-cü illərdə onlar da döyüşlərdə yaralanmışdılar. Göstərdikləri qəhrəmanlıqlarına görə müharibə veteranı və yüksək rütbə qazanmışdılar. Elə, obaya, Vətənə sevgi ailəmizə nəsildən-nəslə keçmişdir. Belə bir ailədə böyüyən, Atəmə hərbçi olmaq arzusu babası Mustafadan qalmışdır.

Hətta gəzintiyə, çöl-bayıra çağrılanda dost-yoldaşlarına işinin olduğunu, ya da dərslərinin çox olduğunu söyləyərdi. Getməməyinin səbəbi evdə olub, işlərə kömək etməyi, bir də əlavə geyimi olmadığı üçün evdə qalardı. Evimizin maddi vəziyyəti yaxşı olmadığı üçün Atəm öz yaşıdlarıyla evdən çıxa bilmirdi. Evin hər işi əziyyəti zəhməti Atəmin çiyinlərində olmuşdu. Kiçik yaşlarından zəhmətsevər və hər işlərin dalıyca qacan, bacaran, yorulmayan balam olmuşdu. Qardaşlarına daim dəstək, böyüklük, atalıq etmişdi. Atası dünyasını dəyişəndən sonra böyüklük əziyyəti Atəmdə oldu. Oxudu, çalışdı ki, atasının arzusunu yerinə yetirərək hərbi peşəyə nail oldu.



***Atəmin kursant yoldaşları***



*Atəm Əliyevin Ali Hərbi Akademiyada təhsil aldığı illər*




***Atəm qardaşları ilə***

O, hərbidə xidmət edən zaman evə gəlmişdi. Ana kimi vəsiyyət etdim ki, bala, heç bir zaman keçmişini unutma! Mən sizləri öz əziyyətimlə böyütdüm. Əsgərlərinə ata-qardaş ol, onların hər birlərinə qayğı göstər, diqqət et, Ürəyi saf balam da elə o günü mənə söz verdi ki, "mənim gözlərim üstə, Ana! "Saq olsun mənim hər sözümü dinlədi, əməl etdi". İşlədiyi dönəmlərində də insanlığından danışırdılar. Hər tərəfdən valideynlər yanıma gəlib Atəmin necə ürəkli bir komandir olmağından söz açardılar. Deyərdilər ki əs-

gərlərinə atadı, qardaşdı, dostdu Atəm Əliyev halal olsun elə oğul böyüdüb vətənə el-obaya verdiyincün.

Bugün də unutmadığım hadisəni xatırlayıram:

- Atəm hərbi hissədə olarkən digər hərbi hissənin bir əsgərinin ağladığını görmüşdü və yaxınlaşıb dərdini dinləmişdi. O əsgərin də sən demə atası rəhmətə gedibmiş, nə icazə ala bilir, nə də pulu var evə getməkcün. Əsgərlə bərabər gedib komandirindən icazəsini alıb, cibinə də pul qoymuş, evinə yola salmışdı.

Hətta Atəmə sual vermişdilər bu etdiyin nədir?. Onun cavabı isə “əsgərin yerində olmağım və atamın dünyasını dəyişdi günü xatırladım”. Nə əzabdı çətindi bir əsgərə ki, burdadı itkisi var, amma gedə bilmir. Bunları bizə gələn zaman hərbi hissənin komandiri deyirdi ki, Atəm Əliyev belə komandir olub, fərq qoymazdı öz əsgəri ya digər mənim əsgərim harda-olursa olsun ata kimi qayğılarına qalardı.

Hətta təlimlər zamanı səngərdə bir əsgərin çəkməsi tamamən iki yerə bölünmüşdü. O, öz çəkməsini çılxarıb əsgərinə vermişdi ki, ayaqqabısız qalmasın. Hərbi hissədə bu gün də Atəmi hörmətlə anıb, yad edirlər. Onun insanlığından qürürla danışırlar.

Elə oldu ki, işlərinin çoxluğu ilə əlaqədar olaraq tez-tez gələ bilmirdi. Danışanda dedi ki, əsgərlərinin çox əziyyət çəkdiyini və soyuğa, istiyə və palçıqda olmaqlarına ürəyim dözməyir. Ona görə də əsgər kazarması tikdirməyə qərar vermişdi. Dedim oğul, işlərin uğurlu olsun, sənki o əsgərlərinə elə qayğı göstərirsən analıq haqqım halal olsun sənə. Fikirləşməzdi ki, evi, maşını yoxdu. Hər şeydən çox əsgərlərini və işini düşünərdi.

Kazarmanı tikdirdi, yanlarını daşla qaldırdı. Ömrünün 20 ilini vətəninə, xalqına şərəfli işinə həsr etdi.

Elə məktəbi bitirdiyi ildə də Bakı şəhərində Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil oldu. Oxuduğu illərdə də hər birimizin qayğısını çəkirdi.

Yadımdadı, 2000-ci ildə həmin liseyi bitirib Ali Hərbi Akademiyaya qəbul olundu və 2004-cü ildə həmin Akademiyanı bitirdi, peşəkar zabitlərin Təlim-tədris Mərkəzində oxuduğu zaman təhsilini davam etdirməyi qərara almışdı. Evə gəlmişdi, qolları boynuma sarıldı. Nədənsə kövrəlmişdi, mən də gözlərim dolaraq öz nəfəsimlə isitdim balamı, sanki canına soyuq olmuşdu o günü elə bil. Mən də kövrələrək oğlum boya-başa çatıb dedim, gözümün ilki ay parçam sağlam və ayaqüstəsən şükür Allaha:

“Hə Ana, vətənə borcumu yerinə yetirməyə və hərbiyə olan istəyimi, atamın arzusunu davam etdirməkcün gedirəm. Nigaran qalmayın, deyirdi.. Qardaşlarına hər evə gələndə böyük olaraq səslənirdi:

Ağ saçlı, nur üzlü Anama hər zaman yaxşı baxın, qayğısını çəkin, diqqət edin. Mən tez-tez gəlib-gedə bilməsəm də siz qardaşlara əmanət edirəm Anamı.”

Çox zəhmətkeş idi. hər şeyi ürəyində saxlayırdı. Elə ancaq ailəsini, bizləri düşünürdü.

Sonuncu dəfə elə sentyabrın 24 də Atəmin zəngi gəldi, danışdıq. Gəlməyini söylədi və hər şeyin yaxşıdı olduğunu, nərahatçılığa səbəb yoxdu ana, demişdi:

O, biri oğlum Əliyev Mustafa da sənədlərini hazırlamışdı. Elə iki qardaş eyni istiqamətdə və bir-birlərini görmədən xidmətdə olmuşdular. Ancaq telefonla



**_Abad kəndi, Atəmin böyüdüyü ev_**

əlaqə yaradaraq döyüşdə iştirak etmişdilər.

Kiçik oğlum Mustafa Əliyev gecə saatlarında dedi ki ana halalıq ver bizə hər şey ola bilər, başını dik tut, heç zaman da ağlama. şəhid olsam atamın məzarının yanında dəfn edin.

Oktyabrın 2-də iki qardaş bərabər yaralanmışdılar. Balaca oğlum Əliyev Mustafa yaralandığıçün Göygöl hospitalına yerləşdirdilər. Atəm isə mənfur düşmənin gülləsinə tuş gələrək son damla qanınadək vuruşdu, elə ağır yaralı, qan içində olsa da üçrəngli bayrağımızı erməni postuna sancmışdı. Murov yüksəkliklərinin alınmasında Atəm Əliyevin xüsusi xidməti olmuşdur. Məhz ona görə də onun adına "Murov qartalı" verilmişdir. Göstərdiyi qəhrəmanlığı ilə bir çox yüksəklikləri düşməndən azad edib, oktyabrın 2-də ən uca şəhidlik zirvəsinə ucaldı..

Himnimizin sədası ilə üçrəngli bayrağımızla balamı son mənzilə, torpağa verdim. Əlbəttə ki, bir ana ki-


Atəmin qardaşı Rəşad Əliyev

mi çox ağırdı, əzabdı mənə. Amma bu gün Atəm Əliyevin qəhrəmanlığından qürür duyuram...

Atəm babaları kimi qəhrəman olaraq adını qızıl hərflərlə tarixə yazdı. Mənim balam ölməyib o, hər zaman yanımızdadı, qəlbimizdə daim yaşayacaqdır. Mən bir ana kimi oğlumla hələ kiçik yaşlarındanda ağıllı hərəkətlərilə fəxr etmişəm.

Atəmin otağı bu gün xatirələrlə məkana çevrilib. Bütün əşyaları, geyimləri aldığı medalları, mükafatları bir güşədə saxlamışam. İndi onun divardan asılmış şəkillərilə təskinlik tapıram...

Vətənə sevgi ilə böyüyən  cəsur ürəkli Rəşad Əliyev Atəmlə olan xatirələrini bölüşdü:

- Mən 1984-cü ildə Ağdaşın Abad kəndində anadan olmuşam. 1991-ci ildə orta məktəbə getmişəm, 2002-ci ildə elə həmin məktəbi bitirib, hərbi məktəbə, 2008-ci ildə təlim-tərbiyə tədris mərkəzində hərbiyə məxsus kurslarda iştirak etmişəm. Arzumu reallaşdırmaq üçün hərbiyə yönəldim. Bu istəklə 6 il Mingəçevirdə N saylı Hərbi hissədə Baş cavuş vəzifəsində xidmət etdim. Atam istəyi idi hər birimiz idmançı olaq, elə özümün

də böyük marağım olduğumçün, idamana həyatımın böyük hissəsini hərb peşəsinə həsr etdim.

- Atəm böyük qardaşım olub. Onunla uşaqlıq illərimiz çox maraqlı keçmişdir. Bir sözlə deyərdim ki, uşaqlığımız dəcəlliklə və qardaşlarlarımla maraqlı oyunlar oynayaraq hec nədən xəbərsiz xoşbəxt sevincli yaşayardıq.

Böyük qardaşım Atəm hər an bizlərə diqqət edər, qoruyardı. O, vardı deyə hec nədən qorxmazdıq. Oyunlarda da birlikdə oynayardıq. Oxatma, dirədöymə oyunlarını bu gündə gözəl xatırlayıram. Hətta küçədə olan uşaqlarla birlikdə oynayarkən, rəhbərlik etməyi çox sevirdi. Oyunlarımızda da başçı kimi davranırdı. Atəm qardaş kimi qardaş, dost kimi dost idi. Onun ürəyi çox saf, uşaq kimi kövrək hər şeyi bölüşən hər birimizcün canı yanardı. O, mənim Ata əvəzim oldu. İstəyi o idi ki, elə ailəsi bizlər yaxşı olaq, çətinliksiz yaşayaq. Çalışırdı ki, hər birimizin şəraiti olsun, rahat yaşayaq. Onun məsləhətinə indi də ehtiyacım olur, yoxluğu ilə barışmaq ailəmizə mənə çox ağırdı. Onunla tək ailəsi yox, kənd camaatı, Ağdaşlılar və xalqımız fəxr edirlər. Atəm Əliyev ölümün gözünə dik baxaraq, Vətən yolunda, torpaq uğrunda canından keçib, Şəhidlik zirvəsinə ucaldı. Şəhidlər heç bir zaman ölməzlər!..

**Elşad Əliyev də qardaşı Atəm Əliyevlə olan günlərini xatırladı:**

- Hər birimizdən fərqli idi Adəm. O, çox çalışqan, istedadlı, qorxmaz böyüyümüz və düzgün yol göstə-

rənimiz olmuşdu. Bizi əziyyət çəkməyə heç bir zaman qoymazdı. Elə istəyirdi ki, hər birimiz yaxşı olaq. Bir qardaş dost olmuşdu. Yoxluğu ilə barışmaq ağırdı bizimçün. Atamızdan sonra hər bir çətinlik əziyyət onun çiyinlərində olmuşdu. Çalışırdı ki, biz oxuyub savadlı olaq. Qardaşımla hər zaman fəxr etmişik. Etdiyi göstərdiyi əməlləri yaxşılıqları onu daim mənəvi rahat edərdi. Kömək etməyi, yardımsevərliyi, insanlığı çox böyük olmuşdur. Qardaşım haqqında nə qədər danışsam azdı. O, mənim ailəmizin böyüyü, sirdaşı, Atası olmuşdu. Bu gün onun yoxluğu ailəmizi çox ağrıdır. Ama adıyla, igidliyi ilə fəxr edirik. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Qardaşım ancaq o böyük şəhadətə ucala bilərdi. O, ölməyib daim hər zaman qəlbimizdədir.



***Atəmin qardaşı Elşad Əliyev***



*Atəmin qardaşı Rahib Əliyev*

**Şəhidimizin diqqətcil qardaşı Rahib Əliyev də qardaşlı günlərini xatırladı:**

- Mən Rahib Əliyev 1987-ci ildə Ağdaşın Abad kəndində anadan olmuşam. Digər qardaşlarım kimi,

kiçik yaşlarından mənim də marağım idmana böyük olumuşdur. Əfsuslar olsun ki, müəyyən səbəblərə görə hərbi məktəblərə qəbul oluna bilmədim. Ama istəyim, arzum ən çox hərbici adını daşımaq idi. Vətənə, xalqa, el-obaya bağlılıq əmilərimdən, babalarımdan bizlərə mirasdı. Onlar da vaxtilə vətəni göz bəbəklər kimi qorumuşlar, hər biri vətəndaşlıq borclarını layiqincə yerinə yetirmişlər. Bizim ailədə vətən sevgisi hər məqamdan ucadır. Biz doğma yurdumuzu, elimizi sevən, qoruyan, vətənimizin övladlarıyıq.

Elə bu tərbiyədə ruhda böyüyən qardaşım Atəm də adını ən uca zirvəyə yazdırdı. Dünyadan köçməyin ən gözəl məqamı elə şəhidlik zirvəsidir. Hər kəsədə qismət olmur igid, cəsur qəhrəmanlıq  həyatı. Qardaşım Atəm Əliyev öz zəhmətilə ucaldı. Anamız bizi çox zəhmətlə böyüdüb boya-başa çatdırdı. Hər birimiz böyük qardaşdan tərbiyə, məsləhətlər almışıq. O, bizlərə Ata, qardaş oldu. Çox maraqlı xoşbəxt uşaqlığımız keçmişdi. Yığışıb hətta yaxın qonşu uşaqlarla oyunlar qururduq. O, qorxmazdı, çəkinməzdi hec nədən. Özündən kiçik olan uşaqlara daim diqqət edərdi. Ehtiyacımız nə olardısa, qaçıb Atəmin yanına gedərdik. İstəklərimizi yerindəcə yerinə yetirərdi. Evin həm atası, həm qardaşı olmuşdu. Çox sadə, kövrək ürək sahibi idi. Atəmin yoxluğu ilə heç kəs barışa bilmir. Kənar bir yerdə də uşaqlar arasında dava-dalaş olardısa belə, Atəm özünü yetirib onları sakitləşdirib, barışdırardı. İstəməzdi ki, kənarda kimsə nərahat olsun. Onun haqqında nə qədər danışsaq azdı. Əziz qardaşımız Atəm Əliyev hər birimizin istər ailəsinin, elin fəxri oldu.

Şərəfli həyat yolu keçmiş qardaşımla fəxr edirəm. Onun daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaqi, əqidəsi üstünlük təşkil edirdi. Belə qəhrəman igidləri xalq heç vaxt unutmaz.

O, vətənimizin gələcəyi üçün canından keçdi və əlindən gələni etdi ki, gələcək nəsillərə örnək olsun. Onlar da şəhid qəhrəmanımız Atəm Əliyev kimi doğma torpaqlarımızı göz bəbəkləri kimi daim qorusunlar!.Şəhidlər bir ömür unudulmaz!..

**Kiçik qardaş Mustafa Əliyevlə həmsöhbət olarkən qardaşı və çiyin dostu olan Atəm Əliyevlə bağlı xatirələrini bizimlə bölüşdü:**

- Mən 1991-ci il may ayının 19-da Ağdaşın Abad kəndində dünyaya göz açmışam. Evin kiçiyi olsam da qardaşlarımdan öyrəndiklərim böyüyə-kiçiyə hörmət, valdeynlərə diqqət, el-obaya Vətənə sevgini aşılamaqlarını görmüşəm. Böyük qardaşım Atəm mənə həm Ata, həm dost yoldaş olmuşdu. Çox qayğımı çəkən və kiçik olduğumcün diqqəti daima üzərimdə olmuşdu.

- Kənd məktəbini 2008-ci ildə bitirib, hərbi xidmətə yollandım. Ürəyimdəki arzum məni hərbçi olmağa sövq edirdi. O, sevgi ki, vətənə bü gündə hər birimizin qəlbində daim yaşanır və yaşayacaqdı. Necə ki, Qardaşım Atəm Əliyev adını unudulmayan tarixə yazdırdı. Atəm mənim qururum olmuşdu. Düşünürdüm ki, yollarımda daim sönməyən işiğım var. Bugün onun yoxluğu ailəmizi çox sarsıdıb, məni də onsuz alışmadığım həyata qaranlığa qərq edib. Qardaşımın

nəsihətlərini xatırlayanda onunla qürürlanıram. O, hər birimizin fəxri olmuşdu, bugün ən uca şəhidlik zirvəsindədi. Elə mənim də hərbiyə, vətənə olan sevgim ailəmdən və babalarımdan mirasımdı.


*Atəmin qardaşı Mustafa Əliyev*

Qardaşım Atəm Əliyevlə xatirələrim tükənməzdi. Elə son dəfə birgə döyüşdüyümüz ikinci Qarabaq müharibəsində iştirakımızı heç zaman unutmuram. Şiddətli gedən döyüşlər zamanı ikimiz də ayrı-ayrılıqda ağır yaralandıq. Mən ayağımdan və döş qəfəsimdən qəlbə yarası aldım, Atəmin isə bədəninin bir tərəf hissəsi qəlpəyə düşmüşdü. O, ağır yaralansa da biriqada komandirinə zəng vurmuşdur ki, yaralılarım və şəhidim var. Yaralandığına baxmayaraq son nəfəsinədək irəli

getdi. Tam sağalmadan yenidən döyüşə getməyi qərara almışdı. O, mənim arxam, dayağım səngər dostum olmuşdur. Son dəfə qardaşımla görüşəndə dedi ki, darıxmışam sizi görüb qayıdacağam. Elə bil hər birimizlə vidalaşırdı. Hər zaman olduğu kimi, məsləhətlərini yenə də söylədi.

Bu gün də xatırlayıram onun sözlərini - "Anama layiqli, ağıllı oğullar olun və bayrağımızı, Vətənimizi həmişə sevin, elimizin adını şərəflə doğruldun".

Mən bugün də qəlpə yaralarım olsa da, şərəfli hərbi peşəmi davam etdirirəm. Vətənimin, xalqımın keşiyindəyəm. Hər birimizin borcudur Ana vətənimizi qorumaq. Lazım gələrsə vətən üçün canımızdan keçməyə bugün də hazırıq. Şəhidlik elə bir zirvədir ki, o zirvəyə ucalmaq hər insana qismət olmur. Vətən, el-oba yolunda şəhidlik zirvəsinə ucalan igid qəhrəmanlarımızı, gələcək nəsillər daim uca etməli qorumalıdır.

Şair qardaşı şəhidlik zirvəsinə ucalan canından can qopan qardaş itkisini belə vəsf edir:

*Rahat yat məzarda, şəhid Qardaşım!*
*Qisasın alındı xain düşməndən.*
*Hər bir kəs əyərək önündə başın,*
*Qürurla danışır, igidim səndən!.*

*Hər bir kəs baş əydi ruhun önündə*
*Düşmənin önündə keçilməz səddin.*

*Şəhidlər diridir Allah önündə*
Ucaldın Allaha sən, Atəm Əliyev.

Vətənini, elini sevən, qoruyan igid oğullarımız var olsunlar. Elə Əliyev qardaşları kimi. Hər birinin ürəyində qanında vətən sevgisi kök salmışdır. O, ruhda tərbiyə alaraq, bugün də öz sözlərini tutaraq addımlayırlar.

Şair şəhidlərimizi belə vəsf etmişdir:

*Ey Şəhid! İgidlik dastanı yazdın*
*Tarixə şəhidin möhürün vurdun.*
*Düşmən yazdığını qanınla pozdun.*
*Torpağın adını sən Vətən qoydun.*

*Ey Şəhid! Qarşında baş əyirik biz*
*Sönmüş ocaqlara ruh verdin yenə.*
*Sahibsiz, yiyəsiz qəbirlərimiz*
*Əsarətdən çıxıb döndü Vətənə!..*

Elə sözümüz yenicə bitər-bitməz, Atəm Əliyevin sevimli müəlliməsi olan Qalibə xanım gəldi. O, çox kövrəlmişdi, için-için ağlayaraq, həyacanla sevimli şagirdi haqqında ürəyində olan xatirələri bizimlə bölüşdü.

## Qalibə Əliyeva sevimli şagirdi Atəm Əliyevi belə xatırlayır:



- Bu gün Atəm haqqında danışmaq çox çətindi, həm də şərəfdir. Çox həyacanlı və qarışıq hisslər keçirərək onun ruhu qarşısında danışıram.

O, çox fərqli, nümunəvi bir şagird olmuşdur. 40 ildir ki, müəllim fəaliyyətim var, sevimli şagirdim Atəm yaddaşımda qalıb. Həyatda iz qoyan şagirdlərimdən oldu Atəm. Az danışan idi, çox çətinliklə söz almaq olurdu ondan. Amma dərslərini yaxşı oxuyan, çalışqan şagird olmuşdur. Yazı xətti çox gözəl olduğundan hər zaman yazı dəftərlərini bir nümunə kimi sərgiyə qoyardım. Atəmi o qədər çox istəyirdim ki, bütün şagirdlərimdən fərqli idi. Səlist danışan, zahirən sakit görünsə də, onun daxilində sən demə vulkan varmış. Vətənpərlik şerlərini birinci sevərək qalxaraq pafosla deyərdi. Tez böyüyüb, mənfur yağı düşmənlərdən qisasını almaq arzusunda idi. Onu tədris zamanı vətənpərvərlik mövzusunda şerlərində, oxudu-

ğu əsərlərdən sezmək olurdu. Məktəbi bitirən zaman, hərbi xidmətə gedərkən gəlib mənimlə görüşmüşdü.

Ona bir ana kimi, sevimli şagirdimə xeyr-dua verib, yola saldım. Çünki onun heç kim bu yolda dur deyə bilməzdi. Atəm sanki ucalığa can atırdı. Elə bir xeyli müddət keçdi eşitdim ki, qəhrəmanlıq göstərən Atəmə “Murov Qartalı” adı verilmişdir. Onu eşidən zaman çox fərəhləndim.

Ona bir qığılcım lazım idi, o da 27 sentyabr Ali baş Komandamızın əmri ilə Qarabağın azadlığı uğrunda başlanan döyüşə atılmaq. İllərin nifrəti xalqı ayaqa qaldırdı. Zabit Atəmin adı dillər əzbəri oldu. Mən Atəm haqqında sosial şəbəkələrdə xəbər tutdum ki, qəhrəmanlıq göstərdiyi üçün ona “Murov Qartalı” adı verilib, çox fəxr etdim. O, uca zirvələrə ada laiq olan oğul oldu hər zaman.

Murov vətənin ən uca zirvəsi, Qartal da daim yüksəkliklərə can atandır. O, bu adla da kifayətlənmədi, daha üstününü seçdi. Çünki şəhidlik zirvəsindən daha uca zirvə yoxdur. Bir türk şeri var. Canaqqala dastanını yazan şair orada da Atəm kimi şəhid olanlara aslan kimi qəhrəmanlara cəsurlara yazılmışdı. Mən onu oxuyanda elə bildim Atəmin həyatı canlanıb. Belə cümlələr yadımda qalıb:

*Sənə dar gəlməyəcək makbari kimlər kazsın.*
*Gömәlim gelseni tarixe desem sığmazsın.*
*Ey şehid oğlu şehid, istəmə məndən makber.*
*Sana ağuşunu açmış duruyor Peyğember...*

Yəni sənə dar gəlməyəcək (makber-yani mezar) yani sən məzarada sığmazsın. Gəl səni tarixə dəfn edim, basdırım. Sən tarixə də sığmazsın. Sənin bu igidliyin, qəhrəmanlığın şücaətin nə tarixə sığmaz, nə məzara sığmaz ey şəhid oğlu şəhid! İstəmə məndən makber, onsuz da şəhid olduğun an gül üzlü Peyğəmbərimiz öz qucağın açıb, yolunu gözlüyür.

Çox dərin məna kəsb edir. Bir qəhrəman oğlunu ondan yüksək mərtəbəsi yoxdur. Çox yüksək zirvəsidir Şəhidlik zirvəsi. Mən Atəmin müəllimi olmağımla fəxr edirəm. Dərs zamanı inşa yazmışdı ki, böyüyəndə kim olmaq istəyirəm. Onda hələ balaca uşaq idi. Bilmirdi ki, kim olacaq. Yazısına diqqət etdim və sonuncu cümləsi belə olmuşdu:

“Mən elə bir insan olacam ki, siz hər zaman mənimlə fəxr edəcəksiniz”! Baxın, bu mənim şagirdim dediyi kimi də etdi. Məktəbimizin kollektivi, el-oba Atəmlə fəxr edir.

Hər yerdə qürurla, şərəflə deyirəm ki, şəhid polkovnik-leytenant Atəm Əliyev mənim şagirdim olub. Həyatımda bundan gözəl hec nə ola bilməz, bundan qürurlu hecnə yaşamamışam.

Şəhidlər vurulduğu zaman ölmürlər, unudulduğu zaman ölürlər. Erməni gülləsi onu öldürə bilməz, nə zaman ki, qədirbilən xalqımız qüdrətli dövlətimiz var, heç kimin haqqı da yoxdur qəhrəmanlarımızı unutmağa. Çünki hər bir şəhid ömrü bir dastandı. Onlar öz qanları ilə dastan yazdılar. O, dastanın hər səhifəsini əzbərləmək, unutmamaq və gələcək nəsillərə aşılamaq bizlərin ümdə borcudur. Həqiqətən çox həya-

canlıyam, elə bilirəm ki, onun ruhu başımın üstündədir və o məni görür, izləyir ki, müəllimim bu gün mənim haqqımda nələr danışır. O, ad günümdə gəlib məktəbdə mənlə görüşmüşdü. Elə döyüş yoldaşlarının bir necəsi də yanında idi. Döyüş yoldaşlarının hər biri komandirləri Atəm Əliyev haqqında səmimi sözlər səsləndirdilər:

- Adəm bizə komandir yox bir ata, bir dostdur. Tabeliyində olan əsgərlərin onu çox sevirlər. Axı komandir sərt olur ki, tabeliyində olan əsgərlər tabe olsun ona. Ama Atəmi bir komandir olaraq həm sevirdilər, həm də tabe olurdular.

İnanın, mən evə gəldim və Atəmin necə bir insan olduğunun səbəbini mən bilirdim. Bir insan kimi insan olasan və ikisini də bir arada bacarığı olub daşıyasan. Onun adı Adəmdi. Adəm də dünyaya gəlmiş birinci Peyğəmbər olub. İnsanlığın ilki deməkdi. O, bu şərəfli adı uğurla daşıyıb.

Bir son olaraq Atəmlə olan bir xatirəm də yadımda qalıb. Gəlmişdi mənim yanıma, öz övladını gətirmişdi. Öpüb qucaqladım mənə dedi ki,

- “Mənim əziz, sevimli anam kimi xətrini əziz tutduğum müəlliməm, övladımın təhsilini sizə etibar edirəm”. Mənimcün o gün ikiqat sevinc oldu. Övladı ona rəğmən çox dəcəl idi. Bu sevinc başqa, qurur hiss oldu bir daha. Bu gün onun ruhu qarşısında bir daha baş əyirəm. Şagirdlərimə şəhid qəhrəman Atəm Əliyevin döyüş yolundan fəxrlə danışıram...

**Bibisi Sərəncam xanım doğma balasıdək istədiyi Atəm barədə xatirələrindən söhbət açdı:**



- Mən 1956-ci ildə martın 13-də Abad kəndində doğulmuşam. Elə hər zaman öz zəhmətimlə kolxozda pambıqçı işləmişəm. Qardaşım çox əziyyətlər çəkib, balalarını oxutmaqçün çalışıb. Oğlanlarının hərbçi, idmançı olmalarını istəyirdi. Qardaşım oğlanlarla fəxr edirdi. O, özü hərbçi olmamışdı, amma oğlanlarını hərbçi görmək istəyirdi. Vaqif qardaşım Atəmi oxutdu. Məktəbi bitirib, Hərbi Akademiyaya daxil oldu, onun Leytenant rütbəsini görmək qardaşıma qismət olmadı. Onun vaxtsız ölümü doğmalarından ayırdı...

Bibi olaraq çox çətindi bu gün mənə Atəm balamdan danışmaq. Çox tərbiyəli, əməksevər, zəhmətkeş bir övlad olmuşdu. Qohum-əqraba ailə üçün canını fəda edən oğul idi. Mənim də övladlarıma daim böyüklük edib, qızlarıma qardaş kimi dayaq olmuşdu.

Uşaq vaxtlarında dəcəl, amma çox zəhmətsevər, qocaq oğlan idi. Məni çox istəyirdi. Elə bibi deyib, hər gələndə öpüb qucaqlayardı məni. Qardaşımın qoxusunu da ondan alırdım. Sonuncu dəfə müharibə başlamamışdan öncə telefonla danışdıq.

Dediyi söz o oldu: "Nigaran olmayın hər şey yaxşıdı, qisasımızı alacayıq". Sən demə sonuncu səsi idi. Təsəllim elə son səsi oldu.. O, öz istədiyi ən uca zirvəyə ada yüksəldi. Bütün Şəhidlər qarşısında bir ana kimi, bir bibi kimi baş əyirəm.

**Araya süküt çökür Atəmin əmisi Əlməmmədov Əlməmməd müharibə illərini hələ də unuda bilməyərək, Vətənə olan sevgisindən danışdı:**



- Mən 1953-cü ildə Abad kəndində anadan olmuşam. Kənd orta məktəbi bitirib, elə həmin ildə hərbi xidmətə getmişəm. Mənim də gənc yaşlarımda hərbiyə marağım böyük olub. Vətənə sevgi bağlılıq candan, qandan, nəsildən gəlib. Biz hərbidə olarkən o vaxtlar Sovetlər dönəmində

qeyri millətləri əsasən hərbi tikintiyə göndərirdilər. Ona görə də silah-sursat istifadəsi çətinlik törədirdi. Hərbi geyim çatışmazlıqları az deyildi. O zamanlar birinci Qarabağ döyüşlərində əsgər-zabitlərimiz daha çox həlak olmuşdu. Bəziləri qəlpələrdən, bəziləri güllərdən. Bu ağır-acını görüb döyüşü davam etdirmək hec də asan olmamışdı. Digər tərəfdən əsgər yoldaşlarımızın qisasını, intiqamını almaq döyüşmək istəyimizi, gücümüzü artırırdı. Acsusuz qalsaq da, vətənin keşiyində dayanmaq sevgisi sonsuz idi. Mən bugün də bu yaşımda hər zaman əlimə silah alıb vətənimi qorumağa hazıram. Elə hərbini bitirəndən sonra 80-ci illərdə gəldim kəndə. Mexanik kimi fəaliyyət göstərdim.

Mən bu gün bir Əmi kimi qardaşımın balası Atəm Əliyev haqqında danışmaq o qədər ağır, çətindi, həm də qurürludu. Atəm Əliyev bütün xalqımızın iftixarıdır.

Onun haqqında o qədər sözlərim var ki..

Körpəlikdən və son səsini eşidib Şəhidlik zirvəsinə ucaladək xatirələrimiz var.

- Atəm adi kənd uşağı və sadə zəhmətkeş bir oğul olmuşdu. Uşaqlıqdan idmana, hərbiyə marağı çox idi. Həmişə deyərdi əmi mən də, böyüyəndə hərbçi olacağam. Vətənə olan sonsuz məhəbbəti ona təbii ki, atasından, babalarından ötürülmüşdü. Artıq məktəbi bitirib, hərbiyə gedib gələndən sonra kənd uşağından hec bir iz əlamət qalmamışdı. Atəm o qədər şirin ağıllı, mədəni, sadə, zəhmətsevər oğul idi ki, ona deyərdim:

- Çalış məktəbi bitir, atanın arzusunu yerinə yetir. Mənədə həmişə qağa deyib səslənib deyərdi:



Atəmin Naxçıvanda
xidmət etdiyi illər



Atəmin həyat yoldaşı ilə
sonuncu dəfə çəkilən şəkli



Atəm qızının doğum günündə, Gəncə şəhərində

Arxayın ol qağa hər şey yaxşı olacaq. Artıq mənim yolum hərbiyədi daha geri "dönüşüm yoxdur". Çünki qardaşımın arzusu olmuşdu ki, Atəm hərbiçi olsun. Müharibə başlamazdan öncə gəlmişdi elə sonuncu görüşümüz o oldu. Tez-tez telefonla əlaqə yaradırdıq. Atəm xidmət etdiyi vaxtlarda yüksək nailiyyətlər qazanmışdır. Harda olursa olsun, gördüyü işləri başa çatdırıb uğurla gələrdi. Elə oxuduğu illərdədə digər yoldaşlarından fərqlənmələri ilə hər birimizin başını uca edirdi, çox çalışqan və işini peşəsini şərəflə qoruyardı. Bu gün də qürurluyuq adıyla uca zirvəsiylə.

Onun keçirdiyi döyüşün hər günü bir tarixə döndü. Tarixə yazılan günlər də hər biri yadda qalmır, unudulur, silinib yaddan çıxır, amma şəhidlik zirvəsi bir ömürlük qızıl hərflərlə yaddaşlarda unudulmayacaq.

Bəli, bir gün bu ömür yolumuzu hər birimiz başa vuracayıq, ama Şəhid adı hər zaman əbədi yaşayacaq. Çünki onlar bir xalq qəhrəmanı olaraq xalqı işıqlı sabahlara aparan, ölümləri ilə ölməzlik qazanan, əbədiyyətə qovuşmuş cəsurlar oldular. Məhz elə xalqımızın müstəqillik tarixidə şəhidlərimizin adı ilə bağlıdır.

Atəm bizim nisgilimiz, kədərimiz oldu, ürək ağrımız oldu, həm də qürurumuz, vüqarımız, fəxrimiz ölməzliyimiz, örnəyimiz oldu. Bu gün əmi olaraq ruhu qarşısında baş əyirəm və deyirəm:

polkovnik-leytenant Atəm Əliyev sən ölmədin!

Sən böyük qəhrəmanlığınla Azərbaycan xalqının tarixinə zəfər yazdın...



***Atəm Əliyev Naxçıvanda həyat yoldaşı ilə***

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından qanından keçmiş, adını tarixə yazdıran şəhidlərimizin yarımçıq qalan arzu xəyallarını bugün onların ailə üzvləri yaşadır. Bəli, nə qədər çətin, ağır olsa da onların nakam həyatlarının ağrı-acılarını ailələri ömür boyu hiss edir.

Hər zamanda Azərbaycan xanımları tək həyat yoldaşı deyil, yaxşı ana, həm də başlarını dik saxlamağı bacaran, ona arxa, dayaq olan, böyük qüvvə olublar. Belə xanım-xatın, gözəl ürəyə sahib olan, gözəl ana əsl vətənpərvər xanım polkovnik leytenant Atəm Əliyevin həyat yoldaşı Xəyalə Əliyevadır.

Çox həssas, kövrək xanım olduğunu görüşən zaman hiss etdim. Ömürboyu sağalmayan yarası ilə başbaşa olaraq ondan Atəm Əliyevlə birgə keçirdiyi

xatirələri bölüşməyi xahiş etdik. Xəyalə xanımın sanki dili yox axan göz yaşları danışmağa başladı:

- Biz Atəmlə 2004-cü ildə tanış olmuşduq. Onun gözəl xasiyyəti, böyük ürəyə sahib olması bizi daha yaxın etdi, elə bu doğmalıq böyük sevgiyə çevrildi. Qısa vaxt ərzində mənə dedi ki, anamı sizə elçi göndərmək istəyirəm. Mən onun insanlığına, xoş xasiyyətinə, mehribanlığına vuruldum. Peşəsi çətin, şərəfli olsa da onunla hər şeyə razı idim. Mənim də fikirlərimə hörmətlə yanaşan bir insan olmuşdu. Elə ilk gündən valideynlərim, qohumlarım Atəmi doğma sanıb istədilər. Öz istəyim ilə 2005-ci ildə onunla həyatın acılı-şirinli yollarına çıxmaqa qərar verdim...

Qısa günlərdən sonra Atəmin işlərinin çoxluğu, üzərində böyük məsuliyyəti olması ilə əlaqədar Naxçıvan Muxtar Respublikasına yaşamağa getdik. İşləri xidmətləri artıq orda başlamışdı. Evlilik günlərimiz xoş, bəxtəvər, gözəl keçirdi..

Elə ilk övladımız 2006-ci il sentyabrın 11-də oğlumuz Vaqif anadan oldu. Körpəmizin səsi hər birimizi xoşbəxt edirdi. Atəm çox ailəcanlı insan olmuşdu, onun diqqəti, nəvazişi, hər sözü məni xoşbəxt edirdi. İşlərinin çoxluğuna, çətinliyinə, yorğunluğuna, baxmayaraq isti nəfəsini daima üstümüzdən yan keçirməzdi.

Elə bu sevgimizdən də 2010-cu il mayın 27-də sevgiylə həyata göz açan ikinci övladımız Nuray qızımız anadan oldu. Sanki qızımızın gəlişi ilə adı kimi dünyamızda rəgarəng nura boyandı.



***Atəm Əliyev qızı Nurayla Göygöl gəzintisində***

Rəngli xoşbəxt dünyamızda, hər gün bir qadın, ana kimi xoşbəxt olduğumu hiss edirdim. O, ailə başçısı kimi, hər zaman uşaqlarına hər birimizə yaxşı ata olmuşdu. Doğrudur, çox qısqanc olsa da, qısqanclığını da sevgisi ilə hiss etdirirdi. İşlərinin çoxluğu, məsuliyyətli olması ilə əlaqədar evə çox gec gəlirdi. Amma gələn zamandada uşaqlarla daim oyunlar oynayardı, dərsləri ilə məşğul olardı. Nurayı kiçik olduğu üçün daim onunla sanki uşaqlaşardı. Atəm çox zəhmətsevər, əziyyətkeş, vətənpərvər bir insan idi. Vaxtı olan zaman gəzintiyə istirahətə üstünlük verərdi. İşindən heç danışmazdı, elə deyirdi ki, şərəflidi işim, amma çox çətindi. O, çətinliklərdə olmasına baxmayaraq, ailəsinə hər zaman səbrli diqqətcil qayğıkeş olmuşdu. Biz həqiqətən nümunəvi mehriban ailə olmuşduq. Onu çox sevirdim, bir insan, dost kimi və həyatımın yoldaşı olaraq. Zəngi gələn zaman uşaqlar ata deyib qaçardılar telefona, sonra mənimlə danışardı.

- Elə sonuncu dəfə sentyabrın 4-ü Göygölə gəzməyə getmişdik. Birgə çox gözəl, yaddaqalan xoş gün keçirmişdik. Hər dəfəsində hərşeyin yaxşı olacağını deyirdi. Sanki ürəyi hiss edibmiş ki, son günləri bizimlədi. Nədənsə onu son dəfə yola salanda dayana bilməyib hönkürdü ilə çox ağladım. Onunla keçirdiyim xoşbəxt günlərimdə hərdən sevincdən ağlayardım, o isə axan göz yaşlarımı silərdi. Bu dəfə amma ürəyimdə onu itirmək qorxusuna ağladım. Axan göz yaşlarımı hər dəfəsində olduğu kimi, silib dedi:

- Ağlama, həyatı bilmək olmaz. Ən uca zirvəyə ucalsam da təklikdən qorxma hec zaman. Daim güclü, başı dik dayan!..

Elə bu sözləri deyib uşaqları son dəfə qucaqlayıb, qoxularını içinə çəkərək getdi. Sanki, gedişi onu bizdən uzaqlara aparırdı. Son zəngi son dəfə sentyabrın 26-da telefonla danışan zaman oldu. Harasa gedəcəkdi, ama hər zaman olduğu kimi, bizə yenə hecnə söyləmədi. Mənə sadəcə tək bir söz dedi:

- Ailəmizi, balalarımızı qorumağı tapşırdı. Allaha əmanət olun. Nə olursa olsun hər zaman güclü ol, uşaqları qoru, sizləri sevirəm. Yaşasın Azərbaycan, Vətən sağ olsun! elə bu sözləri deyib əlaqə kəsildi. Daha sonra günlər keçdi ondan xəbər olmadı. Zəng çatmadı telefonuna....

Günləri sakit göz yaşlarımla keçirməyə məhkum oldum. Çox ağır əzabla yaşadım. Onun şəhid xəbərini eşidəndə bütün dünya mənim üçün dayandı. Sanki bir anlıq Atəmin yoxluğu və bir daha onunla görüşməyəcəyik düşünəndə dilim söz almadı. Həyatda ömür sirdaşını, doğmasını itirmək bəzən bir kitaba sıxmayacaq qədər ağrılı-acılı olurmuş....

Aylarla axtarıldı Atəm. Elə bu axtarış 4 ay çəkdi, bizim nələr keçirdiyimizi təsəvvür edib söyləyə bilmirəm. Uşaqlarına mənə qardaşlarına ağ saçlı anasına çox çətin sağalmayan dərdinə çevrildi. Hər birimizə 4 ay sanki dörd ilə bərabər oldu. Getdi, elə o gedişi son gedişi oldu, gəlişi isə üçrəngli bayrağa bükülmüş tabutla gəldi. Gəlişini belə söyləməmişdi amma. Sən demə hiss edirmiş hərşeyi ki, son görüşü son sözləri olacağına...

Bu gedişi tez oldu, zamansız ayrılığı, onu amansız müharibə doğmalarından vaxtsız aldı, birgə arzularımızın taleyi nakam, yarımcıq qaldı. Yanan ocağımızı

söndürdü gedişiylə. Bir ömürlük qaranlığa qərq etdi gənc taleyimizi...

İçindəki Vətən sevgisi onu müqəddəs şəhidlik zirvəsinə ucaltdı. Ömrümüzü birgə başa vurmaq qismət olmasa da, onunla olan arzularımız bugün mənim çiyinlərimdə yüklənsə də, mübarizə etməliyəm dözümlü olub, onun adını ucaltmalıyam. Bir şəhid xanımı kimi onun ruhu qarşısında söz vermişəm ki, güclü olacağam. Bu gün onunla fəxr edirəm. Atəm əsl dost, yoldaş, bir fədakar ömür yoldaşı və bir ata oldu ailəsinə. Düzdü onun yoxluğu ilə barışmaq mənə çox ağır, çətin və əzabdı. Onsuz keçirdiyim hər gün göz yaşlarıma boğulduğum səssizliyim və təkliyimdi. Birgə qurduğumuz arzularımız xoşbəxt günlərimiz elə onunlada getdi. Sevgi zirvəsinə birgə çıxdıq, amma qismətim taleyim onsuz yaşamaqım tək qalmağım oldu. Həyat sevincinə arxa çevirsəm də, tək baş-başa qalsam da belə, onun ruhu daim bizimlədi. Ondan xatirə qalan övladlarına Atəmin yoxluğunu hiss etdirməməyə çalışacağam. Son üzünü, səsini sözlərini yuxularımda belə görürəm. Dediyi sözü qulaqlarımdadı bugün də...

"Hər an başını dik tut!". Anlayıram ki, o hər zaman bizimlədi, ölməyib, yaşayır. Onunla bugün də qürur duyub fəxr edirik. Çünki Atəm Əliyev ölməzlik, şəhidlik zirvəsinə ucaldı. Balalarımızı onun istədiyi kimi, adına laiq boya-başa çatdırıb, başını daim uca edəcəyəm.

Sanki bir gün yenə o gələcəkmiş kimi gözləyirəm... Atəm Əliyev nəyinki ailəsinin, xalqımızın tarix yazan qəhrəmanı fəxri oldu.

## Həqqət xanım əziz qohumu Atəm Əliyevlə xatirələrini bizimlə bölüşdü:



- Mən elə ilk öncə bu sözlərlə başlamaq istərdim. İnsan yaranışdan yüksəkliyə, ucalığa can atmaq təbiətindədir. Torpaq uğrunda canını fəda edən vətən övladı əslində ölümü ilə əbədilik qazanıb, ən uca şəhidlik zirvəsinə ucalıblar. Bundan böyük hünər, bundan yüksək ucalıq ola bilərmi?!

Çünki şəhidlər vətənin, millətin yolunda öz canlarından keçən insanlardır. Bu cür insanlar yüksək əxlaqi keyfiyyətlərə malik olmaqla yanaşı, qəlblərində vətənə sevgisi sonsuz olanlardı. Bəli, dahi şairimizin dediyi kimi:

Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.

Elə Ağdaşın və Azərbaycanın fəxri olan polkovnik-leytenant Atəm Əliyev haqqında danışmaq mənə də qürüru verir. Onunla görüşüb danışdığımız zamanlarda öz səmimi sadəli ilə ürəyimizi daim sevindirirdi. Öz yaşıdlarından çox fərqlənərdi. Ailəsinə, elinə-obasına, qohumlara hörməti Atəmin sonsuz idi.

Atəm ailəmizçün də çox dəyərli, əziz bala olmuşdu. O, çox ağıllı, qayğıkeş mehriban, böyüklərə hörmətlə yanaşan, qocaq oğlan idi. Hər dəfə kəndə gələn zaman məni də görməyi unutmurdu. Bir ana-bala kimi sarılırdı boynuma.

İşinin ağırlığı, məsuliyyəti onun daim çiyinlərində olmuşdu. Onun haqqında saatlarca danışsam yenə də azdı. Vətənpərvər, elini-obasını torpağını sevən bir qəhraman olmuşdu. Dayımın balasıyla ailəmiz də, bütün kənd əhli fəxr edir. O, cəsurluğu mərdliyilə tarixə adını yazdırdı. Vətənin azadlığı uğrunda vuruşdu, canından keçərək unudulmayan tarixdə qaldı. Mən bir ana kimi doğma yaxını olaraq bugün Atəm Əliyevlə fəxr edirəm. O, ölmədi, ruhu daim bizimlədi. Bütün Şəhidlərimizin ruhu şad olsun..

Elə doğmalar, yaxınlar varki qardaşla bərabər olarlar bu həyatda. Onlarla birlikdə yaşadığı xatirələrini bir ömür unutmazlar. Onu bir gün də unutmayan hər an xatırlayıb yoxluğu ilə barışmayan polkovnik-leytenant Atəm Əliyevin doğması əzizi öz bibioğlu olan Elnur Məmmədzadədir. O, 1991-ci il may ayının 11-də Sumqayıt şəhərində anadan olub. Həmsöbətimiz qardaştək olan doğması Şəhidimizlə olan xatirələri bizimlə bölüşdü.

- Əliyevlər qardaşları ayrı-ayrılqda öz mərdlikləri, cəsarətləri ilə işlərində əməllərində daim seçiliblər. İlk qardaş olan Şəhid Atəm Əliyev nəinki öz qardaşlarına hətta öz doğmalarına hər zaman dəstək olub. Atəm Əliyev haqqında bugün danışmaq mənə çox çətindi, həm də şərəflidi.


*Atəmin dayısı oğlu Elnur*

Elə ilk öncə qayıtmaq istərdim onla olan birgə günlərimizə. O, çox sadə səmimi insan olmuşdu. Biz bir ailə olmuşuq hər bir qardaşları ilə qardaş doğma olmuşuq. O, canı yanan və eyni zamanda doğmalarının hər birlərinə yaxşılıq köməklik göstərirdi. Kiçik yaşlarımızdan bir yerdə olmuşuq, bizlərə daim ağıllı məsləhətləri ilə örnək olardı.

İdmanı çox sevərdi, vaxtı olanda idmanla məşğul olardı. İstəyi daha çox hərb peşəsinə olmuşdu. Arzu istəyi yalnız zabit kimi yetişmək idi..

Məktəbi bitirib, sənədlərini Naxçıvanski Ali Hərbi məktəbinə verdi və daxil oldu. Çox oxuyan, çalışqan, bacarıqlı, qabiliyyəti əziyyətli bir insan olmuşdur. Öz zəhməti ilə qazandı o zirvələri. O, Naxçıvanskidə oxuduğu illərdə də tez-tez gələrdi və birgə hamımız qardaşlar toplanıb görüşərdik.. Düzdü, Atəm Əliyev yaşda bizdən böyük olsa da hec zaman hiss etdirməzdi sanki uşaq kimi saf davranardı. Tək bizlərə yox doğmalarına dostlarlarına iş yoldaşlarına öz səmimiliyi insanlığı ilə

seçilmişdi. Uşaqla uşaq, böyüklə böyük olmuşdu. Heç kimi incitməz, bacarırdı ki, elə hər kəsə köməklik edib, könlünü şad etsin. Nə zaman Ali Hərbi məktəbdən gələrdirsə bizləri görmədən qayıtmazdı. Hər gəlişində dünyasını dəyişən atamı ziyarət etmədən işinə geri dönüş etməzdi. Onun yaxşı əməllərindən, insanlığından nə qədər danışsam yenədə azdır. Atəm ailəmizin və el-obasının fəxri oldu.

İşlərinin çoxluğu, məsuliyyəti və yüksəlişləri onu daim sadə etmişdi. Hec fərqlənməyi sevməzdi. Hər kəslə səmimi gülərüz davranardı. Xoşladığı boş zamanlarında birgə gedib balıq tutardıq, söhbətləşib dərdləşərdik. Ailəsinin məsuliyyəti daim çiyinlərində olmuşdu. Qardaşlarını düşünərək onların problemlərini həll edərdi. Ailəcanlı qohumlarına hörmətlə yanaşan diqqət edən idi. Çalışırdı ki, ailəsi rahat yaşasınlar. Gecə-gündüz onlar üçün çalışırdı,.

Vətənini, xalqını düşünən oğul olmuşdu. Onunla son dəfə elə şəhid olmadan bir gün öncə danışmışdıq. Demişdi ki, hər şey yaxşıdı, gələrəm görüşərik. Onun səsini hər zaman eşidəndə fəxr etmişik. Bu gün onun ruhu qarşısında xatirələrimizi bölüşürəm. Fəxrimizdi Atəm Əliyev. O, igid qəhrəmancasına öz taboru ilə vuruşdu adını ən uca zirvəyə ucaltdı. Atəm Əliyev yanlız şəhidlik zirvəsinə ucala bilərdi, Çünki vətəninə ürəyi yanan belə bir igid tarixdə adını unu-

dulmayan dastana yazdırdı. Şəhidlər unudulmur onlar daim qəlblərdə, ürəklərdə yaşayır.

Xüsusilə onu qeyd etmək istəyirəm ki, doğma olan qardaşlarımdan olan Atəmin qardaşı Mustafa Əliyev hec də qardaşından geri qalmamışdı. O da öz igidliyini mərdliyini ikinci Qarabağ müharibəsində, göstərdi sonadək vuruşdu. Müharibə başlayan zaman Atəm Əliyev və Mustafa Əliyev qardaşları ayrı-ayrılıqda səngərlərdə olaraq vətənin azadlığı uğrunda mübarizə aparmışlar.

Mustafa Əliyev çox yaralının həyatlarını xilas etmişdi. Amma ağır qəlpə yaraları olduğuna görə onu dərhal xətəxanaya yerləşdirdilər. Mustafa Əliyev tam sağalmadan yenidən ön cəhbəyə döndü..

Böyük qardaşımız Atəm Əliyev yaralı olaraq üç rəngli bayrağımızı erməni postuna taxaraq ən uca şəhidlik zirvəsinə ucaldı. Elə Vətəni üçün canından keçməyə bugün də hazır olan Mustafa Əliyev yaraları olsa belə hərbi xidmətini davam etdirir. Ağdaşın igid qəhrəmanı, xalqımızın fəxri olan Polkovnik-Leytenant Atəm Əliyevlə qürür duyuruq.

Görüş zamanı şəhid Atəm Əliyevin səngər yoldaşları ilə bir-bir əlaqə saxladım. Eşidəndə ki, onun haqqında kitab yazılır, özlərinə borc bildilər ki, xatirələrini bizimlə bölüşsünlər. Hər bir dostlarının qəlblərində bir ömür boyu yaşatdıqları Atəm Əliyevi şərəflə xatırladılar:

## Polkovnik Taleh Şamilov dostu Atəm Əliyevlə olan xatirələrini bizimlə bölüşdü



Elə, bir kəndin, obanın və ailəyə yaxın doğma olan qardaşlarından olan Polkovniki Taleh Şamilov bugün də unutmadığı və yoxluğuna barışmadığı şəhid polkovnik-leytenant Atəm Əliyevi belə xatırlayır.

- Əziz, dəyərli dostumun yoxluğu onun bir daha bizlərlə olmaması mənə çox əzab verir. Atəm Əliyevlə çox xoş günlərimiz keçmişdir. Onunla bir kəndin, obanın evladları olmuşuq. Çox istiqanlı, mehriban, sadə insan olmuşdu. Böyük-kiçiyə hörmətlə yanaşan xoşxasiyyətli idi. Ailəsinə çox bağlı hər birlərini düşünən olmuşdu. Çünki ailəsinin ilk böyük evladı Atəm olduğucün hər bir çətinlik onun üzərində idi. Elə məktəb dönəmlərindən onun istəyi, arzusu, hərbçi peşəsi idi. Amalı o idi ki, orta məktəbi bitirib sənədlərini Cəmşid Naxçıvanskiyə verib qəbul olsun və davam etdirsin. O arzularıilə də addımladı. Zaman keçdi Atəm Əliyev peşəkar zabit oldu. Sanki o insan öz peşəsiylə nəfəs alırdı. Atəm işinə məsuliyyətlə, ciddi yanaşan bir zabit olmuşdu. Biz eyni si-

lahdaş, çiyin dostu olmuşuq. Çox işgüzar, cəsarətli və əsgərləri üçün canını belə əsrgəməyən zabit idi. İstəyi o idi və tələsirdi ki, müharibə başlasın, qisasımızı alaq. Sanki o ucalığa can atırdı. Hərdən deyərdim ki, Atəm get evə bir az dincəl, istirahat et. Cavabı isə ”yox nə istirahət, bizə haram olar” yiyələndiyi şərəfli peşəsini, əsgərlərini hər şeyddən üstün bilərdi. Demək olar ki, biz hər gün görüşüb, danışardıq.

Elə son günlərimiz onunla II Qarabağ müharibəsi başlanan zamanlarda oldu. Görüşümüz zamanı dedim ki, bizim çox dəyərli qardaşlarımız, silahdaşlarımız şəhid olublar. 2016-cı il aprel döyüşlərini də xatırlaidım. Mən dözə bilmirdim və bir tabur komandiri olaraq Gəncəyə, ehtiyatda olan hərbi hissəyə təqdimat etmişdim. Atəm Əliyev buna razı olmadı. Hətta onun təqdimatını yuxarı komandalığa ünvanlamışdım. Mənə dediyi sözü bugün də yanaraq xatırlayıram: “mən ön xəttə xidmət etmək istəyirəm”. Təqdimat edildi.

Xalqımızın fəxri, igid oğlu olan general Polad Həşimov Atəm Əliyevi çox istəyirdi. Elə birlikdə olanda Polad Həşimov deyərdi: “Səni görüm az vaxtda general olasan”. Hətta bir dəfə Polad Həşimov Atəm Əliyevin taburunda olarkən demişdi: “Atəm, Vətən bizim ürəyimiz, canımız, anamızdır”.

Atəmin cavabı isə: “Cənab general mən əziz anamçün çox nərahatam, darıxıram və heç də dözə bilmirəm. Daha taqətim yoxdu, elə istəyirəm özüm keçib o azğın lənətlənmiş ermənilərin canını alım. Məni bağışlayarsız.” O sözlərindən sonra Atəm Əliyevi çox fikirli görürdüm. Elə o vaxtlarda dversiya kəfiyyatçılarımız basqın

edərək erməni baş leytenantını əsir götürmüşdülər. Məhz əməliyyata rəhbərliyi Atəm Əliyev etmişdi. Maraqlı xatirələrimiz çoxdur. Bir gün kameradan gördüm ki, 5-6 nəfər tam təchizatla qərargahın qarşısında düzülüblər. Növbətçidən soruşdum ki, qərarga qarşısındakılar kimlərdir. Növbətçi dərhal cavab verdi: cənab polkovnik onlar II taburun heyyətidir. Atəmə dərhal zəng vurub  söylədim ki, bunların məqsədləri nədir. Onun bərkdən güldüyünü eşitdim, vəziyyətin yaxşı olduğunu gördüm. Atəmin cavabı isə: “Qurgenin iyi burnumdan getmir, onlar bilsinlər ki, Azərbaycan torpağına göz dikən mənfur ermənilər öz cəzalarını alacaqlar”. Atəm Vətəni, eli və obasından ötrü canından keçməyə hər an hazır olan qəhrəman idi. O layiqincə xidmətini etdi, ömrünün 20 ilini hərb peşəsində şərəflə yerinə yetirdi. Kollektivdə dostlar arasında öz insanlığı, sadəliyi ilə hörmət qazanmışdı.  Əsgərlərinin hər birlərinə dost, ata olardı. Diqqət, qayğı problemlərini bacardığı qədər həll edərdi. Xidməti illərdə bir çox sertifikatlara, diplomlara və fəxri adlara layiq görüldü. Rütbəsinin verilməsinə saylı günlər qalmışdı. Korpus komandiri ilə onun taborunun şəxsi heyyətlə görüşürdük. Komandir çox razı qalmışdı. Atəm Əliyev layiqlilərin layiqiydi. O şərəfli polkovnik-leytenant rütbəsinə ada layiq görülmüşdü. Belə cəsarətli, igid zabitlə bütün heyyətimiz fəxr edirdi.

Onunla olan son görüşümüzü xatırlayıram.Cəsur general Polad Həşimovu itirməyimiz ona əzab verirdi. Hec əhval-ruhiyyəsi düzəlmirdi. Generalı xatırladıqca deyərdi: ”Biz cənab generalımız Polad Həşimovun qanını yerdə qoymamalıyıq, qisasımızı alacayıq!” Bəli o

şəhid olsa da öz generalının qanını yerdə qoymadı. Əziz, doğma olan dostumla xatirələrimiz tükənməzdir. Mənimçün illər keçsə də Atəm Əliyev bizimlədir. Xususilədə vurğulayım ki, elə eyni vaxtda onun kiçik qardaşı Mustafa Əliyev də başqa istiqamətdə çox cəsur əsgər kimi döyüşdü. Vətənə olan borcunu layiqincə yerinə yetirdi. Sadaladığımızdan görünür ki, vətənə olan sonsuz sevgiləri onların ailəsindən, vətənpərlik ruhunda böyüdülməsindən bariz nümunədir. Atəm Əliyev bir qəhrəman zabit kimi tarixi əsərlərə çevrildi. Övladları bizlərə əmanətdir. Qəhrəman atalarının övladları kimi başları həmişə dik olsunlar. Onların atası polkovnik-leytenant Atəm Əliyev xalqımızın qəhrəman oğlu kimi hömət və ehtiramla xatırlanır.

**Polkovnik-Leytenant Ənnağı İsmayılovun yaxın dostu Atəm Əliyev haqqında söylədikləri:**

- Hər birimiz bu həyatda bir qonağıq. Vaxt zaman çatanda hər birimiz bu həyatla vidalaşacağıq. Bu gün həyatla vaxtsız vidalaşan igid qəhrəman dostumun ruhu qarşısında danışmaq ürəyi yanan insan olaraq mənə çox çətindi.



Elə qayıtmaq istərdim onunla həm xoş və əziyyətli unudulmayan 2004-cü illərin xatirələrimizə. Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra onunla Naxçıvan Muxtar Respublikasının Culfa şəhərindəki N saylı hərbi hissəsində xidmətdə olmuşuq. Atəm Əliyev mənim Tağım komandirim, mən bölük komandiri idim. O, tabeliyində olan şəxsi heyyətin daim qayğısına qalan bir zabit kimi hər zaman ürəklərdə xatirələrdə mərd, cəsur insan kimi qaldı. Atəm çox vicdanlı, məsuliyyətli, qayğıkeş xüsusilə də vətənpərvər bir zabit kimi özünü tanıtdı.

Atəm Əliyev kollektivdə böyük bir nüfuza malik idi. Hər zaman döyüş hazırlıqları dərslərini yüksək səviyyədə aparan şəxsiyyətin hazırlığının səviyyəsinin artırılmasında daim təşəbbüs göstərən və seçilən zabitlərdən oldu. O, Culfa rayonunda bir müddət xidmətini davam etdirdi, sonra döyüş bölgələrinə yollandı. Xidməti zamanlarda komandir kimi örnək oldu hər bir əsgərlərinə. Öz əziyyəti zəhmətilə gəldiyi hərbi peşəsində daim seçildi. Onunla xidmət mövqelərimiz dəyişilsə də, bir müddət fasilədən sonra 2013-cü ildə yenidən rastlaşdıq. O, mənim Şahbuz rayonun N saylı hərbi hissəsində müavinim olmuşdu. Sonra tabur komandiri və Qərargah rəisi vəzifəsində çalışmışdı, işlədiyi müddət ərzində daim taburun onun tabeliyində olan şəxsi heyyətin döyüş hazırlığlarında, ictimai-siyasi hazırlıqlarında mənəvi vəziyyətində, silah və texnikanın qorunmasında, Qərargah fəaliyyətinin inkişafında və hərbi

hissənin fəaliyyətlərində çox böyük xidmətləri olmuşdur. O, həm ailəcanlı, həm vətənpərvər və əsgərlərinə qarşı mərhəmətli, lakin çox tələbkar davranırdı. Tabeliyində olan şəxşi heyyətin hər zaman qayğısına qalırdı. O, özünü komandir kimi yox, əsgərlərinə bir ata, bir dost, doğma kimi yanaşırdı. Hər kəs ona yüksək insani keffiyyətlərinə görə çox hörmət edirdi.

Bir müddət sonra 2016-cı ildə o Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissənin tabur komandirinin müavini vəzifəsinə təyin olunmuşdu. O, yenə də xidmət etdiyi kollektivdə böyük rəğmətlə qarşılanıb, sevilirdi. Döyüş hazırlıq texnikalarını, tank bölmələrinin fəaliyyətlərini, döyüş taktikalarının idarə olunmasında atıcı silahların şəxsiyyətə öyrədilməsində, onların inkişaf etdirilməsində Atəm Əliyevin rolu çox olmuşdur. O, daha sonra müvafiq vəzifələrdə çalışdı, mən isə hərbi hissənin komandiri vəzifəsinə təyin olundum. Atəm isə hərbi hissənin qərargah rəisi və komandiri vəzifəsinə təyinat aldı. O, peşəkar bir zabit idi. Həqiqətən Atəm Əliyev əsl vətənpərvər ruhunda böyüyüb boya-başa çatan və Vətən sevgisini bir ömür boyu ruhunda daşıyan, onu itirməyən bir zabit oldu.

O, Azərbaycanımızın dilbər guşələrindən olan Dağlıq Qarabağımızın azad olunması ilə əlaqədar əsgərlərlə söhbətlər apararkən, hər an hər şeyə hazır olmaqlarını vurğulayırdı. Onların vətənpərvər ruhunda, daim cəsur bir döyüşçü kimi püxtələşməsində əziy-

yəti olmuşdu. Atəm Əliyev hərbi hissə komandiri vəzifəsini davam etdirdi. Hərbi hissənin döyüş hazırlığına, texnikanın, müasir silah sursatlarını öyrədilməsində şəxsiyyətin döyüş qabiliyyətinin artırılmasına böyük diqqət yetirir, təlim-məşq toplantılarının keçirilməsində hərb işini şəxsiyyətə yaxşı mənimsədən bir zabit olmuşdu.

Ümumiyyətlə xususi vurğulayım ki, xidmət onuncün birinci idi. Çox sevirdi hərb peşəsini demək olardı ki, ailədən üstün tutardı işini. Bir amalı vardı: iş məsuliyyəti və bir də vicdan. Onda bu üç söz formalaşıb canına hopmuşdu. İşlərində özünü hər zaman göstərirdi. Hər kəs ondan bir insan kimi bir dost kimi, bir döyüşçü bir zabit kimi çox razı idi.

Daha sonra Atəm Əliyev 2017-ci ildə Dağlıq Qarabağ bölgəsinin Gədəbəy N saylı hərbi hissəsinə tabur komandiri, Mayor vəzifəsinə təyin olundu. O, illərdə elə Bakı şəhərində Azərbaycan Silahlı Qüvvələrinin təlim-tədris mərkəzində tabur komandiri kursunu bitirib, polkovnik-leytenant rütbəsini alıb birbaşa N saylı hərbi hissədə tabur komandiri təyin olundu.

Aprel döyüşləri başa çatanda o, təkidlə yuxarı komandalığa müraciət etdi ki, onu döyüş bölgələrinə göndərsinlər. Döyüş bölgələrində, uzun müddət xidmət göstərdi. Ona bir qığılcım lazım idi, elə sentyabrın ayının 27-də öz taburuyla döyüşələrə qoşuldu. Və-

tənpərvər, mərd qəhrəman bir komandir kimi döyüşə qatıldı və Murovdağın azad olunmasında böyük əməyi olmuş bir zabit kimi tanındı.

Mən əziz, dəyərli dostum haqqında nə qədər danışsam da yenə də azdı. Şəxsiyyətli, vicdanlı bir qəhrəman dostumu itirmək mənimcün əlbətdəki çətindi, hər an həmişə yeri görünür. Atəm Əliyev tək bizim üçün yox Azərbaycan Xalqının fəxridir.

Dövlətimiz başçısı Ali Baş Komandan Cənab İlham Əliyev tərəfindən Atəm Əliyev "Bayraq Ordeni" və "Qüsursuz xidmətlərinə görə" 2-ci, 3-cü dərəcəli medalları ilə təltif olundu, o, bir çox sertifikatlara, təşəkkürnamələrə, fəxri fərmanlara laiq görülmüşdür.

O, ailəsi yoldaşları üçün unudulmayan bir iz qoydu. Çünki onun hər zaman ürəyi vətənlə döyünürdü. Bizə qürur verir ki, dövlətimizin yetişdirdiyi zabitlər Azərbaycan Silahlı Qüvvələrinin Ulu Öndərin yaratdığı məktəbin yolunda fədakarcasına xidmət edir, uğurlar qazanır canından keçməyə hər an hazır olurlar. Atəm Əliyev də elə cəsurlardan biri idi. Belə igid övlad yetişdirən nur üzlü Ulduzə ananın əllərindən öpürük "cənnət anaların ayağı altındadı" buyurub peyğəmbərimiz. O ana ki, bu gün başı dik qürurlu qəhrəman oğlu ilə fəxr edir.

Polkovnik-Leytenant Atəm Əliyev göstərdiyi qəhrəmanlığı ilə tarix yazdı, gələcək nəsillərə örnək oldu.

## II qrup müharibə əlili, istefada olan baş leytenant Muradov Hacı səngər dostu olan Atəm Əliyevlə xatirələrini bölüşdü:




***Kursant yoldaşı Hacı Muradov Atəm Əliyevin məzarını ziyarət edərkən***

”Biz gəldi-gedərik, təki Vətən yaşasın” amalının qəlbində hökm saldığı, qısa və mənalı ömründə hər an belə vətəni düşünən çox dəyərli və cəsur, tanıdıqca daha çox tanımaq istədiyin şəxslərdən biri, nur üzlü bir ananın vətənpərvər oğlu olaraq dünyaya göz açan, lakin, şəhadəti ilə bütün anaların oğlu olan, şəhid polkovnik-leytenant Əliyev Atəm Vaqif oğludur.

Əziz dostum haqqında danışmaq mənə ağır, həm də çox qürurludu. Bəli,

onunla qısa tanışlığımız olsa da belə vətənpərvər, vətən üçün sözdə yox əməldə canından keçməyə daim hazır olan nur üzündən bəlli idi.

Ulu öndərimiz Heydər Əliyev danışarkən nitqində belə demiş: "Bütün peşələr gözəldir, ən gözəl peşə isə Vətənə xidmət etməkdir" kəlamını hər zaman dilində şüar edən komandir ömrünün ən gözəl çağlarını vətənimizin azadlığı torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə həsr etdi, bununla da kifayətlənmədi. O, hər zaman tabeçiliyində olan şəxsi heyətin də vətəni sevən döyüşçü kimi yetişməsi üçün hər şey etmişdir. O deyirdi, "Bir millətin sahib olduğu ən önəmli şey vətənidir". Atəm Əliyev hər şeydən hətta, canından da üstün bildiyi vətəni üçün şəhid olaraq adını ən uca şəhidlik zirvəsinə ucaldı. Bu müqəddəs məqam hər kəsə nəsib olmur. Hətta "Qurani-Kərimdə" də şəhidləri ölü adlandırmağı icazə verilmir.

Mən də şanslı biriyəm ki, polkovnik-leytenant Atəm Əliyevi tanımışam, onunla birlikdə bu şərəfli yolda addımlayıb qəhrəmancasına torpağımızcün vuruşmuşuq. Vətən müharibəsində, Murovdağ döyüşlərində yurdumuzun hər qarışı üçün Azərbaycanın mərd, şücaətli igid oğlanları ilə birgə mübarizə aparmışıq. Onun Vətən eşqi döyüşçülər üçün bir məktəb, sevgi, hörmətlə anılacaq bir yoludur, hər bir vətəndaş üçün ilk dərsdir. Vətənpərlik ruhunda böyüdülmüş, vətənsevər polkovnik-leytenant Atəm Əliyevin dilindən düşməyən tək bu sözlər "vətən, yurd, torpaq, bayraq"

şüarı ilə yoğrulmuşdur. Əziz dostum haqqında nə qədər danışsam yenə də azdır. Onun necə saf ürəyə sahib olduğunu yoldaşlıqda, insanlıqda sadiqliyini tək mən yox hər bir əsgər heyyəti bilir. Atəm Əliyev zəhmətsevər idi. O, şərəfli peşəsini hər şeydən üstün tutardı. Hərşeyi bölüşən, paylaşan, xüsusilədə nizam-intizama diqqət edən əsl qəhrəman olmuşdu.

Nə qədər ki, üçrəngli bayrağımız şəhidlərimizin sayəsində ucalarda dalğalanmaqda davam edir, bu o deməkdir ki, biz xalq olaraq öz varlığımızı, vətənimizi qoruya bilmişik.

Bizlər hər zaman şəhidlərimizin əziz xatirəsini daim ucalarda tutmalıyıq. Peyğəmbərimiz şəhidlər haqda demişdir: "Şəhid cənnətdədir, Tanrı qatında xeyrli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ançaq şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbədə olduğunu bildikləri üçün yenidən şəhid olmaqları üçün can atarlar". Bu torpaqlar cəmi şəhidlərimiz sayəsində vətənimiz oldu. Hər zaman bizlər əlimizdən gələn ən yaxşı işləri edərək, hər addımımızda, hər sözümüzdə belə şəhidlərimizi ansaq onların ruhları şad olar. Şəhidlər biz unutduğumuz zaman ölürlər. Atəm Əliyev kimi vətəni canlarından çox sevən əziz şəhidləri sevmək, onları hər zaman yad etmək bizim öndə olan vətəndaşlıq borcumuzdur. Unutmayaq ki, Şəhidlər vətənimizin istiqlalı, torpaqlarımı-

zın azadlığı və bütövlüyü, dövlətimizin daimi, müstəqilliyimizin əbədi, üçrəngli bayrağımızın sonsuza qədər üfiqlərdə dalğalanması üçün fəda ediblər!.

**Bəhruz Heydərov kursant yoldaşı Atəm Əliyevlə xatirələrini bölüşdü:**



Atəm Əliyevlə bir tağımda oxuduğumuz illərdə şirin xatirələrimiz çox olub. Onunla bir otaqda yaşayıb, bir süfrədə çörək yeyərdik. O, əsl vətənpərvərdi, ən önəmlisi gözəl insan olmuşdu.

Elə bir dostu itirmək mənə çox çətindi. Atəm Əliyevlə günlərimizi bugündə xatırlayıram. Həmişə yatma vaxtına nəzarət edərdi, hər kəsdən erkən qalxıb, yerini səliqə-sahmana salardı. Qalx komandası veriləndə Atəm artıq idman üçün düzülüş yerində bizi gözləyərdi. Heç vaxt nə idman saatından, nə də dərslərinə gecikməzdi. Çox məsuliyyətli, daim axtarıb-öyrənən gənc hərbçi idi.

Atəm Əliyev haqqında günlərcə danışsaq yenədə az olar. O, hər birimizin qəlbində bir insan, əsl və-

tənpərvər cəsur qəhrəman kimi iz qoydu. Onunla hər zaman fəxr etmişdik, bugün daha da çox qürur duyuruq.

Şəhidimizin digər yoldaşı deyir ki, Murovdağ döyüşlərində Atəm Əliyevin xüsusi xidmətləri olmuşdur.

**Səngər dostlarından Nail Həmidov Atəm Əliyevlə olan birgə günlərini belə xatırlayır:**



- Həyatda elə dostluqlar var ki, əbədidir qırılmazdır. Bəli, dostluq ülvidir onda bəşəriyyətin gücü parlayır. Dost sözü sadə dörd hərfdən ibarət olsa da böyük əhəmiyyət daşıyır. Dost olan kəs əzəmətli dağlar kimi möhkəm, dözümlü, od kimi alovlu, su kimi saf torpaq kimi güclü, qüvvətli olmalıdır. dostluq yoldaşlıq haqqında çox sözlər yazılıb elə kəlamlarda deyildi kimi:

*Qəlblər birdir, dünyalar ayrı olsa da*
*Biz dostumuzu unutmarıq, bizdən çox uzaq olsa da...*

Dostluq insan həyatında misilsiz rol oynayan bir varlıqdır. Dostluğun bariz nümunəsi, dar gündə güvənəcəyin yoldaş, illər boyu sınaqdan çıxır. Bəli, budur

dostluq devizimiz. Sadaladığımız o şəxslərdə varsa, bu dostluq tarixin hər bir ağır sınaqlarından çıxıbsa, yaşadığımız həyat boyu tarazlığını pozmaz..

*Dostluqdan min kitab yazılsa azdır,*
*Onun al bayrağı götürməz ləkə.*
*Dostluq könüllərdə səslənən sazdır,*
*Ucalır onunla bu el, bu oba..*

Gənc yaşlarından birlikdə addımlayan dostlar öz ellərinə obalarına şərəf gətirdi, adını tarixə yazdı, digəri isə dostu Atəm Əliyevin qisasını alaraq yaşadı. Şəhid Atəm Əliyevin özü kimi cəsur igid və canlı əfsanə olan Nail Həmidov dostunun ruhu qarşısında həyat yollarından fəxrlə danışır.

Söhbətimizə keçmədən öncə xalqına millətinə ürəyində vətən sevgi ilə böyüyən içində düşmənə nifrətlə yaşayan dostuna daim sadiq olan Mayor Nail Həmidovun qəlbi xatirələrlə zəngindir:

- Bizi bir amal səsləyib, birləşdirib. Vətən torpaqlarımızı yağılardan azad edərək və üçrəngli bayrağımızı ucaltmaq. Bizlərin böyük amalı idi.

- Mənim ürəyimin sirdaşı, çiyin dostum Atəmin yoxluğuna alışmaq mənə çox çətindi.

Atəmin ailəsi çox zəhmətsevər olub, Allah rəhmət etsin, atası Vaqif dayıya, xoş xasiyyətli, qonaqsevən halal insan olmuşdu. Məktəbdə idmanı gənclərə çox sevdirmişdi. Biz Atəm Əliyevlə çox bağlı olmuşduq. Atəmin arzuları çox idi. Onunla birgə həyata keçirəcək diləklərimiz vardı. Vaqif dayı dünyasını vaxtsız dəyişəndən sonra, anası Ulduzə xanım zəhməti ilə

balalarını böyüdüb boya-başa çatdırmışdı. Bunlara baxmayaraq evin yükü Atəmin çiyinlərində oldu.

Hətta oxuyarkən yığdığı kiçik məvacibləri toplayıb, ailəsinə göndərirdi. Qardaşlarına kömək üçün hər şey edirdi. Onunla biz çörəyimizi yarı bölüb yeyərdik. O, çox mərd insan idi, kimi insan, ürəyi saf və mərhəmətli idi.

Cəmşid Naxcivanski adına Ali Hərbi məktəbi bitirdikdən sonra Atəm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təlim-tədris Mərkəzində dinləyici zabit, mən isə kəşfiyyat üzrə bitirdik. Amma dostluğumuz qardaşlığımız hörmətimiz  unudulmaz oldu. Hər zaman düzgünlükdən, sədaqətdən, el-obasından danışardıq.

2009-cu ildən o Bakıda hərbi hissələrdə oldu, mənsə Naxçıvanda. Dostcasına zarafatyana söylərdik ki, kim tez rütbə alacaq. Ay fərqimiz olurdu, onla rütbəni məndən öncə alardı. Çox sevinərdim dostumun uğurlarına.

Atəm zəhmətsevər bir zabit olmuşdu. Öz çəkdiyi zəhməti şərəfi ilə ucalırdı. O çox cəsur, qorxmaz döyüşçü idi. Tağıma gələn gündən çox fərqliliyi vardı. Əziyyətə qatlaşan və tapşırıqları öhdəsindən layiqincə gələn döyüşçü olmuşdu.

Təlimlər zamanı bütün göstəriciləri yüksək olsun deyə, öz üzərində durmadan çalışırdı. Çox yanımlı xüsusiyyəti var idi. İzin verməzdi ki, hec zaman dostları onun üçün nəsə etsin. Dostluqda, yoldaşlıqda seçilən insanlardan olmuşdu.

Əgər müharibə başlasa “biz düşməndən intiqamımızı alacağıq”, deyərdi. Arzu edirdi hər zaman, elə bir zirvəyə ucalım ki, məni Azərbaycan xalqı tanısın. Səmimiyyəti, insanpərvərliyi ilə kollektivdə böyük iz qoydu.

Atəm Əliyev elə bir cəsur qəhrəman zabit, döyüşçü oldu ki, digər yoldaşlarından seçilib yüksək peşəkarlığa, vəzifələrə, rütbələrə laiq görüldü. O öz tabur ilə ağır döyüşlərə qatıldı. Şəxsi cəsarəti ilə fərqlənirdi. Murov yüksəkliyinin alınmasında qəhrəmanlıq göstərdiyi üçün döyüşçülər ona “Murov Qartalı” adı vermişdilər. Onun ruhu Murov dağlarının səmasında hərlənir.

O böyük iz qoydu, bariz nümunə oldu gələcək nəsillərə. Əsl vətənpərvər zabit kimi, qəhrəmancasına döyüşdü, ən uca zirvəyə yüksəldi.

**Ceyhun Ağayev-Ehtiyatda olan Kapitan Atəm Əliyevlə xatirələrini bölüşdü:**



- Mən əziz qardaşımla uzun müddət Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə xidmət etmişdik. Oxuduğumuz illərdə ondan yanlız insanlıq, dürüstlük, mərdlik gördüm. Sadəliyi, səmimiyyəti, zəhmətsevərli ilə digər yoldaşlarından fərqlənirdi. O, vətəninə, millətinə çox sadiq olan bir zabit olmuş-

du. Tabeçiliyində olan şəxsi heyyəti sevirdi, onlara daim qayğı göstərir, problemlərinin, çətinliklərinin həll olunması üçün əlindən gələnləri etmişdi. Ailəsinə, obasına çox bağlı insan olmuşdu. Atəm Əliyevi tək mən yox, əsgər heyyəti sevdi.

- Öz cəsarəti, mərdliyi ilə unudulmaz bir xatirələr qoydu. Səngər dostumun adını əbədi yaşadacağıq. Onunla hər zaman fəxr etdik, bu gün qürürla söyləyirəm ki, polkovnik-leytenant Atəm Əliyev, sən ən uca zirvədəsən! Xalqımız öz qəhrəmanlarını heç vaxt unutmayacaqdır.

**Mikayılov Firidunun qəlbində döyüş dostu Atəm Əliyev barədə çox xatirələr uyuyur:**



- Biz Atəm Əliyevlə 1997-cil illərdən bir idik. Avqust ayının 25-i olardı mən də yeni gəlmişdim Cəmşid Naxçıvanski adına hərbi məktəbə. Öncə də bir necə görüşmüşdük. Sanki elə sanırdım ki, birbirimizi uzun müddətdi tanıyırdıq. Elə o illərdən bir dost, dayaq olduq.

Çox sadə və ürəkli oğlan olmuşdu. Onunla çox xatirələrimiz, unudulmaz günlərimiz keçmişdir. Bir səmimiyyətlə sirlərimizi bölüşərdik. Hec unutmadığım xatirələrdən birini xatırlayıram:

- 2000-ci illər elə yeni gəlmişdik hərbi hissəyə. Atəm özünə mobil telefon almaq üçün məvacibini toplayırdı. O illərdə də yeni çıxmışdı mobil telefonlar. Sanki əlcatmaz olmuşdu, hər kəsdə olmazdı. Bir bazar günü idi elə gördüm ki, sevincək gəlir Atəm. Mobil telefon aldığını gördüm, çox sevinirdi. Öz elinə, kəndinə, ailəsinə bağlı olmuşdu. Daim ürəyi Anasının, qardaşlarının yanında idi. Dərslərini yaxşı oxuyan, çalışqan kadr olmuşdu. İxtisas bölgüsü zamanı Atəm özünə birinci piyada qrupunu seçmişdi. Mənə dedi ki, öz arzuladığım ixtisasa yiyələndim, gələcəkdə general olacağam. Hər zaman olduğu kimi o, oxuduğu hərbi liseyi layiqincə bitirdi. Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə uzun illər xidmət etdi. İşinin çoxluğuna baxmayaraq daim əlaqə yaradardıq. Bir müddət keçəndən sonra Atəm Əliyev Murovdağda mövqe tutmuş hərbi hissəyə təyinat aldı. O zamanlarda toplantılarda yenidən dostumla görüşürdük. Elə görüşən zaman mənə dedi ki, məni Murovdağ istiqamətində yerləşən tabur komandiri təyin etmək istəyirlər. İşğalçı düşməndən qısasımızı almaq üçün məqam olacaq. Elə bir necə gün keçdi, onu tabur komandiri təyin etdilər. Arzuladığı, can atdığı döyüş yolunu şərəflə yerinə yetirdi. Atəm Əliyev adını qızıl hərflərlə hərb tariximizə yazdırdı.

## Ehtiyatda olan Polkovnik Müslümov Müslüm - döyüş yoldaşı, cəsur zabit Atəm Əliyevlə xatirələrini danışdı:



- İlk tanışlığımız Atəm Əliyevlə 2007-ci ildə Culfa rayonunda yerləşən hərbi hissədə başlamışdır. O, bir zabit kimi bacarıqlı, çətin vəziyyətlərdə tez çıxış yolu tapa bilmək qabiliyyətinə malik olan vətənpətvər bir oğul olmuşdu. Tabeliyində olan əsgər-zabitlərə tələbkardı, məsuliyyətli olmağı öyrədirdi. Bir komandir kimi onlara döyüşün sirlərini öyrətməkdən yorulmazdı. Əsgərlərə səmimiyyəti ilə bir ata, bir qardaş olmuşdu. Hər birlərinin problemlərini həll etmək qayğılarına can yandırırdı. Onunla unudulmaz xatirələrimizi xatırlayan zaman məni hər zaman qəhər boğur.

- Bir dəfə Ordubad rayonunda soyuq dağı deyilən yüksəklikdə şaxtalı dekabr ayında 6 nəfərlik bir qrupla hərəkət etdiyimiz zaman birdən tufan qopdu. Həmin zamanda işimizin məsuliyyəti çox oldu-



*Atəm Əliyev Naxçıvanda. 2009-cu il*

ğundan o vəziyyətdə çlxış yolu axtarırdıq. Tufan duman o qədər çox güclü idi ki, hansı istiqamətdə getdiyimiz təyin edə belə bilmirdik. Hətta tufan görməklərimizi belə çətinləşdirmişdi. Amma Atəm ərazini çox yaxşı tanıdığından tez qərar qəbul edərək, birgə getdiyimiz qrupu yüksəkliyin əks tərəfinə apararaq hər birimizi xilas etmişdi. Qayalıqlara sığınmışdıq. Biz 5 saata yaxın o soyuq qayalıqda qaldıq. Düzdür yolumuz 8-10 km uzansa da Atəmin məharəti sayəsində qrupu sağ-salamat dayaq nöqtəsinə çatdıra bildik.

- O, əsl fədakar bir dost olmuşdu. Dost yoldaşları üçün canından kecməyə daim hazır olan igid idi.



***Atəm Əliyev Bakıda Təlim Tədris mərkəzində, 2015-ci il***

Onunla həm ailə dostluğumuz, vardı, həm də qonşu olmuşduq. Xidmətdə dağlarda olan zamanlarda ailələrimizin bir-birlərinə dəstəyi, köməyi olardı. Onu narahat edən torpaqlarımızın işğalda olması idi. Söhbətlər zamanı deyərdi ki, əsgərlərimizi daha yaxşı öyrətməliyik, hər zaman hazır olmalıdırlar.

Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordu döyüş mövqeyini tutdu. İllərdi gözlədiyimiz gün, torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi gün nəhayət ki gəldi. Murovun zirvəsində olan qrupa qarşı düşmən durmadan artelleriya və aviasiya zərbələri endirirdi. Bir peşəkar, qəhrəman döyüşçü komandir kimi, öz taburu ilə hər zaman olduğu kimi, təhlükəli anlarda da təmkinini qoruyub saxlamağı bacarardı. Məhz elə bunlara görə də verdiyi qərarlar uğurla alınardı.

Onun son döyüşü Murovdağ stiqamətində olmuşdu. Əməliyyatlarının əsas məqsədi xususi qruplar vasitəsi ilə mənfur ermənilərin nəzarətində olan, böyük strateji əhəmiyyəti daşıyan zirvələri fəth edərək Kəlbəcərə yaxınlaşmaq və Ağdərə yoluna vizual nəzarəti yaratmaqla yüksəkliyə qalxmaqı idi. Atəm Əliyevin tədbirləri sayəsində 3300 metr yüksəkliyi taburu ilə fəhh etdi. Taborun qəhrəmanlığı barədə əməliyyatdan maraqlı söhbətlər danışdı: əsgərlər silah-sursatları çiyinlərində daşıyaraq dağın zirvəsinə qalxmaqla 6-7 saat vaxtları keçmişdi. Mənfur ermənilərin pusquları 10-15 nəfər olmaqla ayrı-ayrı postlardan ibarət olmuş və əsas qüvvələrini isə arxada saxlayırdılar. Taburu ilə bir necə kilometri qət edərək, düşmənlərin müşahidə etmədiyi istiqamətə zirvəyə irəliləyirdi. Murovdağ qanlı döyüşü Atəm Əliyevin son döyüşü oldu. O şəhidliyin zirvəsinə ucaldı. Öz qəhrəmanlığı ilə şiddətli döyüşlərdə şərəfli yoldada öz şərəfli adını qızıl silinməyən tarixə yazdırdı. Onun vətən xalq qarşısında qoyulan döyüş tapşırığını layiqincə yerinə yetirdi.

Mənim silah yoldaşım, polkovnik-leytenant Atəm Əliyevin Murov dağının alınmasında çox böyük şücaəti olmuşdur. Onun yoxluğu mənə həqiqətən də çox ağırdı. Qarabağın azadlığı uğrunda döyüşlərdə o öz adını unudulmayan tarixə yazdı..

O, tarix ki, hər zaman qəlblərdə daim yaşayacaq. Bu gün biz hamımız əfsanəvi qəhrəmanımız olan polkovnik-leytenant Atəm Əliyevlə fəxr edirik...

Vətən qarşısında öz canını fəda edən, tarix yazan, “Murov Qartalı” adı ilə tanınan polkovnik-leytenant

Atəm Əliyev anasının dediyi kimi Çəmşid Naxçıvanski adına hərbi liseydə  təhsil illərində fərqlənirdi. Hərbi liseyi bitirdikdən sonra 2000-2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan (AAHM) Ali Hərbi məktəbdə təhsil alır. İstəyi o idi ki, hərbi məktəbi bitirib ordu sıralarında xidmət etsin. Torpaqlarımızın bir hissəsi Kəlbəcərlə bərabər digər torpaqlarımız da işğalda idi. Vətənpər oğul kimi bu vəziyyət onu gecə-gündüz çox nərahat edirdi. Böyük strateji əhəmiyyət daşıyan Kəlbəcərlə birlikdə Şimaldan Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdən Ağdam, Xocalı, Laçın rayonları da erməni qəsbkarların işğalında idi.

2004-cü ildə hərbi Ali Hərbi Akademiyanı bitirib, Peşəkar Zabitlərin Təlim-tədris Mərkəzinə qəbul olunaraq təhsilini davam etdirmişdi.

Bəzən hərdən düşünürük ki, öz peşəsini sevən, ideal dərəcədə yerinə yetirən şəxslər var ki, bu həyatda onlar məhz belə vətənpərvər doğulurlar. Atəm Əliyev sevdiyi peşəyə sədaqətlə xidmət etdi.

Atəm Əliyev hərbi məktəblərdə hamının diqqətini özünə cəlb edə bilmişdi. Rəhbərlik gənc hərbçidə olan qabiliyyəti, baçarığı hər zaman dəyərləndirirdi.

Bu həvəslə o, 2005-ci ildə həmin Mərkəzdə təhsilini başa vuraraq, Leytenant rütbəsi aldı və təyinatla Naxçıvan Muxtar Respublikasının-N saylı hərbi hissəyə göndərildi. Bu iti zəkalı, vətənpərvər gənc leytenant Atəm Əliyev bacarığı ilə hər kəsi heyrətləndirirdi. Mayor Atəm Əliyev adına yüksəldi və əldə etdiyi uğurları ilə irəli addımlayırdı. Vətən naminə bu keşməkeşli yolda mübariz dözümlü, olmağı öyrənmişdi.

Onun uğurlu hər addımları ilə fəxr edirdilər. Yüksək döyüş ruhuna və bacarığına malik olan cəsur əsgər hər an hər şeyə hazır olduğunu vurğulayırdı:

Vətənə, anaya sevgisi sonsuz idi. Xidmət illərində bir çox keyfiyyətləri görmüşdü, üzərinə düşən vəzifəni hər an istəyirdi ki layiqincə bacarsın. Göstərdiyi şücaətlərinə görə peşəsinin yolunda Atəm Əliyev 2015-ci ildə 10 il qüsursuz xidmətlərinə görə, 3-cü dərəcəli medalla təltif olunmuşdu.

Bəli 10 il bir mübarizədir, bir igid qəhrəmanın keçilən şərəfli yoludur. Onun keçirdiyi bu illər ərzində öyrəndikləri, elə nizam-intizamdan sıradan başlanıldı.

Öz zəhməti və əziyyəti ilə ucalan, gənc mayor leytenant Atəm Əliyev 2019-cu ilin oktyabrda Göygöldə yerləşən N saylı hərbi hissəyə qərargah rəisi təyin olunmuşdu.

❖

Getdikcə məsuliyyəti əziyyəti artmışdı. Həyat yolu onu yeni zirvələrə aparırdı.

O, yol ki, bir ömürlük şərəfli tarixə düşən xalqın qəhrəman oğlu adına qovuşdurdu.

Şərəfli yollardan, onu 2020-ci ilin yanvarında Peşəkarlar Zabitlərin təlim-tədris Mərkəzinə göndərilərkən yenidən orada kurs keçərək Tabor Komandiri vəzifəsinə yüksəldi. İstəyi o idi ki, əziyyətlə qazandığı adlara layiqincə çiyinlərində daşısın.

Atəm Əliyevin keçdiyi Ali Hərbi Məktəbi ona yüksək bilik, bacarıq verməklə yanaşı, həm də ordumuzun müasir silah və texnikası ilə ustalıqla istifadə etməyi bacarmaqı, peşəkarcasına qorumağı, komandir

kimi əsgərlərinin formalaşmasında layiqli komandir kimi yetişməsində böyük rolu olmuşdu.

Əqidəsi bu idi ki, Komandir özü hər kəsə şəxsi nümunə olmalıdır. Polkovnik-Leytenant Atəm Əliyev vətənpərliyi və qorxmazlığı ilə əsgərlərinə hər zaman nümunə olmuşdu. O, döyüş meydanlarında, təlim proseslərində əsgərlərini ruhlandırmağı daim bacarmışdı.

Qardaşı Rəşad Əliyev canlı olaraq gördüyü bir mənzərəni bu gündə bizə xatırlatdı:

Atəm Əliyev iş zamanı çox məsuliyyətli, tələbkar idi. O, əsgərlərinə təlim zamanlarında:

“Mən peşəmi öz arzu istəyimlə seçmişəm. Vətənə el-obama bağlılığım sonsuz sevgim bu müqəddəs peşəmi seçməyimə səbəb oldu. Bu sevgimi də alovlandıran vətənpərlik hissi təbii ki, ailəmdən, babalarımdan və təhsil aldığım ocaqdan qaynaqlanıb. Hərbiçilik çətin peşədi, lakin daha yüksəkdir, çünki vətənin keşiyində dayanmaq, onu qorumaq kimi şərəfli, əzimli bir vəzifə yerinə yetirirsən. Belə uğurlu şərəfli peşəyə sahib olmuşuqsa, vətənimizə xidmət etmək hər birimizin müqəddəs borcudur. Unutmamalıyıq ki, torpaqlarımızın bir hissəsi düşmənin işğalındadı. Bu gün bizləri bu məsələ düşündürür. Bugün Azərbaycan əsgər-zabiti bir amalla vuruşmalıdı ki, tarixi ədalət zəfər çalsın. Ona görə də doğma torpaqlarımızı mənfur ermənilərdən azad etmək, hər birimizin vətəndaşlıq borcumuzdur. Bunlarla yanaşı, mənəvi dəyərlərimizə sadiq olmaqımız, keçirdiyimiz dərslərdə,

təlimlərdə daha yaxşı fəal iştirak etməliyik ki, hər an hazır olmalıyıq”.

Bu sözləri komandir polkovnik-leynenatı Atəm Əliyevin öz əsgərləri ilə hər saatda danışdığı sözləri olmuşdu..

O, çox səmimi bir komandir, bir dost kimi dost və hər bir əsgərlərinə Ata kimi qayğıkeşliyi olmuşdu. Tabeliyində olan əsgərləri döyüşə həm mənəvi, həm taktiki hazırlayırdı. 15 ildə qazandığı, təcrübəni hərbidə olan bacarıqlarını əsgərlərinə öyrətməklə yanaşı onlarda düşmənə nifrət aşılayırdı.

❖

Vaxt getdikcə payızın qoxusu, dumanlı çiskini qışın soyuğunun tez gəlməyini istəyirdi. Hərdən aram-aram yağışlar vətənin keşiyində duran əsgərlər, komandirləri dincəlməyə belə qoymurdu.. Havanın sakitliyi sanki nələrisə demək istəyirdi. Bunlara rəğmən əsgərlərə hər zaman diqqətçil həssaz olmağı tövsiyə edərdi. Sərt təbiətli Murov Ağdərə istiqamətlərində ayıq-sayıq olmaq polkovnik-leytenant Atəm Əliyevin nəzərindən qaçmazdı.

❖

27 sentyabr 2020 -ci il səhər saatlarında Ermənistanın silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəhbəboyu Azərbaycanın ordusunun mövqelerini iricaplı artilleriya qurğularla intensiv atəşə tutdular. Mövqelərimizdən adekvat cavablar olsa da, əks tərəf hücümları dayandırmaq istəmirdilər.

Bu savaş II Qarabağ müharibəsinə çevrildi. Polkovnik-Leytenant Atəm Əliyev öz taburu ilə bərabər

Murovdağ və Ağdarə istiqamətlərində böyük şücaətlər göstərdi. O, əsl komandir olaraq içindəki necə illik həsrəti ilə döyüşüb-vuruşdu. Onlar dağları, meşələri keçərək yorulmadan vuruşurdular. Bir amalla qələbəyə aparan yolda dayanıb bayrağımızı qaldırmaq, həmrəy olub savaşıb vuruşmaq, qalib ölkə kimi tanıtmaq idi məramları. Murovda öz taburuyla göstərdiyi şücaətə görə Şəhid polkovnik-leytenant Atəm Əliyevə "Murov Qartalı" adı vermişdilər. Qartal sözünün elə mənasıda adından bəlli ki, hər zaman öz gücünü yuvasında ocağının qorunmasında göstərər. Vüqarlıdı, cəsurdu Qartal. Hər zaman mübarizə aparmağa hazır olan savaşçı. Qartal hər zaman mübarizədədir. Qartal uca zirvəyə qalxarkən, lazım olanda canından keçməyə belə hazırdır.

Bəli, Şəhidlik elə bir zirvədir ki, ünvanı əbədiyyətdir. Şəhid Polkovnik-Leytenant öz canı qanıyla ölməzliyi ilə o ucalığı qət etdi.

"Murov Qartalı" Atəm Əliyev kimi, öz cəsurluğu ilə ən böyük zirvəyə ucaldı.

❖

Azərbaycan Silahlı Qüvvələri düşmənin bütün istiqamətlərdə hücumunun qarşısını ala bildi. Ağır döyüş əməliyyatları 10 saatdan artıq davam etdi.

Cəsur zabit Atəm Əliyevin bir xarakteri vardı. Elə hər zaman əsgərlərini arxada, özü isə irəlidə gedər, əsgərlərə "siz mənim arxamca gəlin" deyərdi əsgərlərini qoruyardı...

Lakin azğın düşmən igid qəhrəmanımız polkovnik-leytenant Atəm Əliyev 44 günlük Vətən müharibəsin-

də Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucaldı. O, Vətən müharibəsində öz taboru ilə birlikdə Murovdağdakı bir çox yüksəkliklərin alınmasında layiqincə iştirak etmiş, 2020-ci il oktyabrın 2-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünü bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşan və qəhrəmancasına igidlik göstərən Atəm Əliyev şəhidlik məqamına yüksəldi..

Onun nəşi böyük axtarışların nəticəsində 25 yanvar 2021-ci ildə tapılaraq gətirilib doğulub boya-başa çatdığı Ağdaşın Abad kəndində torpaqa tapşırıldı. O, son damla qanıyla vuruşdu və uşaqlıqdan olan arzusuna ucaldı. O, ucalıq ki, adını tarixə qızıl hərflərlə yazdırdı.

O yerləri gəzmək getmək Atəm Əliyevə qismət olmadı. Ama döyüş yoldaşları dostları düşməndən intiqamını alaraq qələbəmizi üçrəngli bayrağımızı qaldırdılar.

Qələbədən sonra Murovdağ silsiləsində strateji yüksəkliklər Azərbaycan ordusunun nəzarətinə keçdi.

Azərbaycan Respublikasının Prezidenti Silahlı qüvvələrinin Ali Baş Komandası İlham Əliyev cənabları Murovdağdakı döyüşləri belə xarakterizə edirdi:

“İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf

yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəlikləri götürdük və bu yüksəliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan döyüş meydanıda azad edildi. Ancaq böyük hissə Ermənistan kopitulyasiya aktına imza atandan sonra azad edildi”.

Polkovnik-Leytenant Atəm Əliyev bir çox mükafatlara laiq görülmüşdür. Nümunəvi xidmətlərinə görə müxtəlif illərdə aldığı təşəkkürnamələr və “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi yubiley medalı və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərancamına əsasən Atəm Əliyev ölümündən sonra “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib.

Azərbaycan Republikasının Prezidenti İlham Əliyev 24.06.2021-ci il tarixli sərancamına əsasən Atəm Əliyev ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməlliyyatlarına

qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə bocunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərancamına əsasən Atəm Əliyev ölümündən sonra “Vətən uğrunda” medalı ilə də təltif edilib.

Polkovnik-Leynenant Atəm Əliyev haqqında film çəkildi Zəfər Uğrunda. Onun gösttərdiyi şücaətindən, torpağa, vətənə bağlılığından danışıldı və epizodlar göstərildi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, qanı və canı bahasına azad edildi. Bəli, Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan Ordusunun hər bir əsgəri, Vətən övladları canını Vətən uğrunda fəda etməyə, düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir. Gedən döyüşlər bizim hansı iradəyə, gücə və hərbi siyasətimizin güclü olduğunu göstərdi. Mənfur erməni işğalçıları ordumuzun rəşadəti qarşısında diz çökdü. Ən önəmli o oldu ki, bütün xalq öz rəhbəri ətrafında bir yumruq kimi sıx birləşdi. İllərlə işğalda olan torpaqlarımız qarış-qarış, kəndbəkənd işğaldan azad edildi. Uzun illərdən sonra doğma torpaqlarımızda üçrəngli şanlı bayrağımız ucaldıldı. Ona görə II Qarabağ, 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürür mənbəyimiz olaraq qalacaqdır.

Ağdaşın və xalqın sevilən şairi Fikrət Qoca gözəl söyləmiş:

*Deməyin, biz adiyik,*
*Bu, odlar diyarıdır*
*Biz odlar övladıyıq!*
*"Odlu diyar" deyilən*
*Müqəddəs adımız var*
*44 günlük döyüşlə*
*Yer üzünü çaşdıran*
*Müzəffər Ordumuz var!*
*Biz lazım olan zaman*
*Əl uzadıb hamımız,*
*Böyük bir can olarıq!*
*Hamımızın anamız*
*Azərbaycan olarıq!*

*Ey Ali Baş Komandan*
*Bu böyük qələbəni*
*Qazanmaq çox çətindir.*
*Bu sənin zəfərindir,*
*Bu sənin zəhmətindir.*
*Bu şərəfi qorumaq*
*Xalqım, sənin işindi*
*Bu sənin döyüşündü*
*Hər bir kəsi zəhməti*
*Zəfərdə görnüşündü.*
*Heç vaxt unutmayaq,*
*Biz ucalmış bir xalqıq*
*Sözümüz əməlimiz*

*Adımıza yaraşsın.*
*Zəfər bizə yaraşsın*
*Bizə sevgi gərəkdi*
*Bizə bayram gərəkdi*
*Bayramınız mübarək*
*Bayraq başdan ucadır.*
*Bayrağımız mübarək.*

Müzəffər Azərbaycan Ordusu Ali Baş komandanın rəhbərliyi altında 44 gün ərzində böyük zəfər tarixi yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bir yumruq kimi birləşərək sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda vuruşdular və haqq ədalət qələbə caldı. Bu gün hər birimiz qürur, böyük sevinc hissləri ilə yaşayırıq. Biz Qarabağ uğrunda aparılan döyüşləri zəfərlə başa çatdırdıq. Torpaqlarımızı ordumuzun gücü və əsgərlərimizin qəhrəmanlığı sayəsində qarış-qarış azad etdik. Azərbaycanın Vətən müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa etməsi böyük qələbədir və Azərbaycan xalqı tarixi qələbəsini öz müdrik rəhbərinin başçılığı ilə qazandı.

**Elə Prezident İlham Əliyevin qeyd etdiyi kimi:**
"Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir necə rayonu döyüş meydanında düşməndən azad etdik, üç royonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv

edir. Bu gün Dağlıq Qarabağda savaşan insanlar Azərbaycan vətəndaşlarıdır. Mən bir daha demək istəyirəm ki, onlar görəcəklər ki, vahid Azərbaycan dövləti çərçivəsində onların yaşayışı yaxşı olacaq. Onlar bu səfalətdən canlarını qurtaracaqlar. Baxın, biz indi Bərdədən Ağdama dəmir yolu çəkirik. Ağdamdan Xankəndiyə məsafə 20-30 kilometrdir. Amma Ermənistan paytaxtından Xankəndiyə gəlmək üçün neçə saat vaxt sərf etmək lazımdır, yük maşınları ilə bəlkə də on saat. Özü də çətin dağ yolları ilə. Ağdamdan isə Xankəndiyə yarım saat. Bu, gələcək perspektivlərimizi diktə edəcək. Ona görə biz buna hazır olmalıyıq və öz strategiyamızı, öz taktiki addımlarımızı elə atmalıyıq ki, bundan sonra bu bölgədə bir dənə də təhlükə mənbəyi olmasın. Əlbəttə ki, bunun qarantı Azərbaycan Ordusudur".

Bəli, öz qanları, canları bahasına qəhrəman ordumuz qələbə çaldı. Bəli, bu üç şey midrik əcdadlarımızdan bizlərə miras qaldı. Ana dilimiz, vicdanımız və vətənimiz. Öz torpağını, yurdunu ana dilini sevən və qoruyan, hər işlərində vicdanı şərəfi ilə yaşayan Atəm Əliyev haqqında hələ çox kitablar, şeirlər yazılacaq. O kitablar ki, gələcək nəsillər onun yaşadığı ömürdən ibrət götürüb, vətənini daim qoruyacaqlar.

Bəli, bir igid cəsur Qəhrəmanın od-alovdan keçmiş həyat hekayəsinin sonuna gəlib çıxdıq. O, qəhrəman ki, əməllərini unudulmayan bir tarixə bir kitaba dillər əzbəri olan bir dastana yazdırdı. Nakam əfsanəvi igid qəhrəmanımız olan Atəm Əliyevin yanan əbədi məşəli hər birimizin and yerimiz səcdagahımız olacaqdı!..

*"Vətəninə ana deyib səslənən*
*Hər sözün bir dastan oldu Şəhidim.*
*Torpağın hər qarışını qoruyan.*
*Mərdliyin bir hünər oldu Şəhidim.*
*Öz canından keçib qəhrəman oldun.*
*Sən qanınla tarix yazdın şəhidim.*
*Daim xalqın qurur duyur səninlə.*
*Sən ömürlük yaşayırsan Şəhidim!."*

**Bu savaşın şərəfini fəxarətini doğmalarına əbədi yaşadan polkovnik-leytenant Atəm Əliyevin ömrünün 20 ilini vətənə həst etdiyi illər**

Hələ sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", Qüsursuz xidmətə görə" 3-cü dərəcəli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif olunub.

1996-cı ildə Naxçıvanski adına hərbi liseyə daxil olub.

2000-ildə Heydər Əliyev adına Ali Hərbi Akademiyaya daxil olub.

2004-cü il oranı bitirərək ilk Leytenat rütbəsini alır.

2005-ci ildə Naxçıvan Muxtar Respublikasına göndərilərək N saylı hərbi hissədə tağım komandiri vəzifəsində xidmətə başlayıb. Naxçıvan Muxtar Respublikasında xidmət etdiyi illərdə mayor rütbəsinə və Qərargah rəisi vəzifəsinə kimi yüksəlmişdir.

2019-cu ildə Müdafiə Nazirliyin əmri ilə Göygöl rayon N saylı hərbi hissəsinə göndərilib.

2020-ci il yanvar ayında TTM nə 26 iyun Silahlı qüvvələr günündə Polkovnik-Leytenat rütbəsini alır, xidməti dövründə 10-15 illik qüsursuz xidmətə görə medalına laiq görülür. Xidmət etdiyi illərdə fəxri fərmanlara və Silahlı Qüvvələrin 90-95-100 illik yubley medalına laiq görülüb.

27 sentyabrda başlanan 2-ci Vətən müharibəsində taboru ilə Murov dağında qəhrəmanlıq göstərmişdi. Bir çox yüksəklikləri düşməndən azad edib. 2 oktyabrda şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərancamına əsasən Atəm Əliyev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycan Prezidenti İlham Əliyev 24.06.2021-ci il tarixli sərancamına əsasən Atəm Əliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməlliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə bocunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərancamına əsasən Atəm Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə də təltif edilib.

Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində motoatıcı taborun motoatıcı bölüyünün motoatıcı taqım komandiri, mexanikləşdirilmiş taborun motoatıcı taqım ko-

mandiri, motoatıcı bölük komandiri, motoatıcı taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi, motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini, motoatıcı tabor komandirinin birinci müavini qərargah rəisi, motoatıcı taborun (BMP-2) Qərargah rəisi -tabor komandirinin müavini, motoatıcı tabor komandiri vəzifələrində xidmət etmişdi. “Polkovnik-Leytenant” hərbi rütbəsinədək yüksəlmişdir.

❖

Bəli, şəhidlər heç zaman ölmür, onların ruhu əbədi olaraq hər birimizin və xalqımızın qəlbində daim yaşayacaqdır. Vətən el-oba üçün yaşadı, millətinə xalqına əsl insan, vətənpərvər oğul olan Polkovnik-Leytenant Atəm Əliyev oldu. Ömrünün 20 illiyini xalqa, vətənə, torpağa bağlı yaşayan cəsur qəhrəmanımız Atəm Əliyev qısa, amma şərəfli, hər kəsə örnək olan bir ömür yolu keçdi. Həmişə həyat mübarizəsindən öz şərəfiylə çıxaraq, vətəndaşlıq borcunu dərindən dərk etdiyi üçün elə vətənə olan sevgisini ürəyində əbədi yaşadaraq öz canı-qanı bahasıyla layiqincə yerinə yetirdi.

Əfsanəvi qəhrəmanımızın əməlləri ürəklərdə yaşayır. O, öz borcunu düşmənlə mərdliklə üz-üzə dayanaraq, vətənimizi torpaqlarımızı düşməndən azad etdi. Məhz elə ən uca şəhidlik zirvəsinə şəhadətinə yüksəlib, ölümsüzlüyü ilə əbədiyyətə qovuşdu.

Bugün şəhidliyi qət edən Polkovnik-Leytenant Atəm Əliyevin bizə, vətənə yadigar əmanət olan iki

övladı Əlizadə Nurayı və Əlizadə Vaqifi öz balalarımızdək sinəmizə çəkib, dinləmək, qayğılarına qalmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Onlar qəhrəman ataları ilə fəxr edir qürur hissi duyaraq, böyük ehtiramla belə xatırlayırlar:

**Cəsur atanın ağıllı övladı Əliyev Vaqif atalı dünyasından olan xoş günlərini bizlərlə bölüşdü:**

- Atamı çox gözəl xatırlayıram. Bir ata kimi çox mehriban gözəl xasiyyətə malik olmuşdu. Evə gələn zaman hər birimizin təhsili və qayğılarıyla məşğul olardı, ən çox bizimlə oyunlar oynayardı. Mənə deyərdi ki, sən artıq böyük oğlan olmusan ağıllı, qoçaqsan. Atam istəyirdi ki, biz savadlı və dərslərimizi yaxşı oxuyaq. Məni savadlı cəsur bir oğul kimi görmək istəyirdi. Arzusu o idi ki, mən məktəbi uğurla bitirib, iqtisadçı sənətinə yiyələnim. Atam hər an bizimlədi, onun məsləhətli sözlərini hər an xatırlayıram. Xatırladıqca da hər yolumu addımlarımı düşüncəli atıram. Çünki o ailəsinə bizlərə xalqımıza bir örək oldu. Düzdü çox darıxıram, hətta hərdən düşünürəm ki, yenə işdədi və işləri çox olduğucün evə gec gəlir. Amma atam ən uca şəhidlik zirvəsinə ucaldı. Göz yaşlarımla ruhu qarşısında atama söz vermişəm ki, sənə istədiyin kimi övlad olacağam. Atamın yoxluğu anama bugün ikiqat əziyyət olub. Çalışıram ki, mənim çiyinlərimdə olan məsuliyyət bir atamın oğlu olaraq şərəfli daşıyım. Anamın hər an qayğısına qalıram, bacıma da daim diqqətimi yetirirəm. Demək olar ki, Atam dediyi kimi,



mən artıq böyümüşəm yaxşı ağıllı olmalıyam.

Atamla çox xoşbəxt günlərimiz olmuşdur. O, bizim hər zaman qayğımıza qalardı, dost olmuşdu bizimlə. Gələn zamanlarında bizləri gəzintiyə, istirahətə apapardı birgə maraqlı xoş keçərdi günlərimiz. Onun yoxluğu, mənə çox ağırdır, həm də qürürludu. Bizimlə son dəfə danışanda mənə dediyi sözü bu gündə xatırlayıram:

- "Ağıllı oğlum mənim, bilirəm ki sən artıq böyümüsən və nəyə qadir olduğunu bir ata kimi mən bilirəm. İnanıram ki, mən olmasamda, hər zaman zirək ağlınla hər şeyi bacaracaqsan. Anan, bacın sənə əmanət, Oğlum!."..

Bəli, mən atamın istəklərini arzularını çalışacağam ki, yerinə yetirim. Onun arzuladığı kimi anama, bacıma xalqıma vətənimə layiqli bir övlad olum.

Atam işini çox sevirdi. Elə sevərəkdə ən uca zirvəyə qəhrəmanlığıyla Şəhidlik zirvəsinə ucaldı. Mənim Atam tarixdə unudulmayan Qəhrəman oldu. Onunla hər zaman fəxr etmişəm, bugün də hər zamanda fəxr edəcəyəm. Çünki mən, qəhrəman polkovnik-leytenant Atəm Əliyevin oğluyam!..

**Qəhrəman atasının həkimlik arzusuyla addımlayan Əlizadə Nuray Atəm qızı atalı xoş günlərini bizimlə xatırladı:**



- Atam mənim üçün əvəzolunmaz varlıq olub. Onu bugün də çox gözəl xatırlayıram. Atam işlərinin çətinliyinə görə evə gec-gec gələrdi. Mənə çox çətin, ağrılıdı atasızlıq. Atamla hər an hər saniyəmiz bir unudulmayan xatirəyə çevrildi və atalı günlərimi bugün də yaxşı xatırlayıram:

Ad günüm idi. Demək mayın 27-də atam evə gəlmişdi. Mənim də 10 yaşım tamam olurdu. Elə Atam da mənə hədiyyə surpriz üçün özü gəlmişdi. O günü o qədər sevinmişdim ki, sevincimin həddi-hüdudu qalmamışdı. Çünki atamın işləri yetərincə çox olduğu üçün tez-tez evə gələ bilməzdi. İşini çox sevərdi, hər zaman bizə deyərdi ki, mən öz zabit peşəmi sevərək gəlmişəm və hər anda vətənimi göz bəbəyim kimi qoruyuram. Sizlər də xalqımıza, cəmiyyətə yararlı, layiqli övladlar olun.




Bir neçə gün qalmışdı evdə. Mənim dərslərimlə çiddi məşğul olardı. Bir yerdə texnologiya dərslərini düzəldib, hazırlardıq və rəsmlər çəkərdik. Mənim atam çox mehriban, qayğıkeş idi. İşindən gələn zamanlar birlikdə gəzməyə gedərdik. Çalışırdı ki, bizi hər zaman xoşbəxt etsin. Atam istəyirdi ki, mən həkim olum. Arzusu məni ağ xalatda, savadlı həkim kimi görməyi idi. Qardaşımı isə iqtisadçı. İndi bizim vəzifəmiz ilk növbədə təhsilimizi və dərslərimizi yaxşı oxuyub, savadlı olmaqdı. Anamın çəkdiyi əziyyətləri ağrıları hər gün gördükcə atamın yoxluğuyla barışa bilmirik. Ona hər an çox ehti-



yacımız var. Mənim 13 yaşım olsa da, anama dəstək oluram hər bir işlərdə kömək edirəm. Ona görə də qardaşımla birgə gecə-gündüz çalışırıq ki, dərslərimizdə daim fərqlənək yaxşı oxuyaq. Elə təhsil aldığım orta məktəb Ağdaş şəhər Müşfiq İsayev adınadı. Məktəbdə kompüter otağına  atamın adı verilib. Bununla yanaşı Ağdaş Dövlət Hümanitar kollecində və Nizami Gəncəvi adına orta məktəblərdə də sinif otağlarına Şəhidlik zirvəsinə ucalan qəhrəman atamın adı verilib.

Söz vermişik ki, atamızın arzusunu yerinə yetirəcəyik. Biz tez-tez atamın abidəsini ziyarətə gedirik. Sağlığında bir ata kimi daim bizə məsləhətləri ilə yollarımıza bir ömürlük mayak oldu. Bilirəm ki, atam bizi hər an görür və hər zaman da bizimlədi.

Biz atamızla həmişə fəxr etmişik, bu gündə qürürla şərəflə fəxr edirik. O, vətəni, öz elini sevən qəhrəman tarixə çevrilən bir insan oldu. Adını oxuduğumuz unudulmayan tarixə yazdırdı. Mən məktəbi bitirib, atamın arzuladığı ağ həkimlik xalatını geyinib, ziyarətinə gedib və deyəcəyəm ki:

- Bax ata!.. Gəlmişəm sənin ruhun qarşında söz vermişdim. İndi sənin qızın arzunu yerinə yetirdi. Ata Sən ən uca zirvədəsən! Şəhidlər ölməz, şəhidlər unudulmaz. Elə unudulmayan bir iz qoydun sən Ata! Mən fəxr edirəm ki, bir ölməz qəhrəman, igid Polkovnik-Leytenant Atəm Əliyevin qızıyam!..

# QEYDLƏR ÜÇÜN

# MUROV QARTALI

**Pərvanə MEHMANQIZI**

**Dizayner:** Cəfər Kərimov
**Korrektor:** Şəhla Nəsirova

Çapa imzalanmışdır: 08.08.2022
Formatı: 60x84 1/16 həcmi 6 ç.v.
Sifariş №2.

---

"Ərgünəş" FM nəşriyyat -
Poliqrafiya müəssisəsində nəşrə
hazırlanmış və çap edilmişdir